# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

*Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin (səfirlər və müşavirlər) Şuşa şəhərinə səfəri başlayıb. Bu barədə SİA xəbər verir. Onlar səfər çərçivəsində Şuşa şəhərində Qarabağ küçəsi, Aşağı Gövhər Ağa məscidi və Şuşada birinci yaşayış kompleksi ilə tanış olacaqlar.*

## Diplomatik korpus nümayəndələrinin Şuşaya səfəri başlayıb




SƏS

№ 065 (7233)

19 aprel 2025-ci il.
Qiyməti 60 qəpik

## Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva "Sea Breeze" istirahət mərkəzinin ərazisində həyata keçirilən layihələrlə tanış olublar



2

# Avropa qorxu və təlaş içindədir




11

## Tramp Çinlə Avropanı necə yaxınlaşdırır?



4

## 44 uşaq himayədar ailələrə verilib



8

## Məşhur cütlüyün 4 milyon dollarlıq malikanəsi xarabalığa çevrilib



16

## Dil xalqın böyük sərvətidir




10

## Birinə bənzəməyə çalışarkən bir-birimizə oxşadıq



8

# Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva “Sea Breeze” istirahət mərkəzinin ərazisində həyata keçirilən layihələrlə tanış olublar
















***Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakıda “Sea Breeze” istirahət mərkəzinin ərazisində həyata keçirilən və qarşıdakı dövrdə planlaşdırılan layihələrlə tanış olublar.***

AZƏRTAC xəbər verir ki, “Agalarov Development” şirkətinin təsisçisi Emin Ağalarov əvvəlcə dövlətimizin başçısına və birinci xanıma “Sea Breeze”də istismara verilmiş “Park Residences 2” layihəsi barədə məlumat verdi.

Bildirildi ki, bu layihə çərçivəsində 1260 mənzildən ibarət yeddimərtəbəli 10 bina tikilib. Sakinlərin rahatlığını təmin etmək üçün burada müasir infrastruktur - hovuzlar, istirahət zonaları nəzərdə tutulub, həmçinin ərazidə geniş yaşıllaşdırılma işləri həyata keçirilib. Ölkəmizdə keçirilən COP29 çərçivəsində “Sea Breeze” ümumilikdə 4 minə yaxın qonaq qəbul edib ki, onlardan da çoxu məhz “Park Residences 2” layihəsinin binalarında yerləşib.

Sonra Prezident İlham Əliyevə “Sea Breeze”in ümumi baş planı və həyata keçirilmiş layihələr barədə məlumat verildi. Qeyd olundu ki, kompleksin ərazisində indiyədək 500-dən artıq daşınmaz əmlak obyekti tikilib. İstirahət mərkəzində sakinlər və qonaqlar üçün yüksək səviyyədə rahat şərait yaratmaq, həmçinin onların asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə açıq və qapalı hovuzlar, fitnes mərkəzləri, restoranlar, kafelər, uşaq və idman meydançaları, qaçış və velosiped yolları, fəvvarələr yaradılıb. Burada məktəb, uşaq bağçası və xəstəxana da var.

Abadlıq işlərinə xüsusi diqqət yetirilib, 10 milyona yaxın bitki və ağac əkilib, yaşıllıq zonalarının ümumi sahəsi 300 hektara çatdırılıb.

Daimi yaşayış və yüksəksəviyyəli istirahət infrastrukturunu özündə birləşdirən “Sea Breeze” gələcəyin şəhəri kimi inamla inkişaf edir. Sahə üzrə ekspertlərin fikrincə, bu, çoxlu sayda müxtəlif formatlı daşınmaz əmlak obyektlərini bir ərazidə birləşdirən qlobal miqyaslı nadir layihədir.

Xəzər dənizinin sahilində, Bakının mərkəzindən cəmi 30 dəqiqəlik məsafədə yerləşən “Sea Breeze” 500 hektar ərazini əhatə edir. Burada 1,5 milyon kvadratmetrdən çox yaşayış və kommersiya daşınmaz əmlak layihəsi həyata keçirilib və istifadəyə verilib. Rekreasiya zonaları, parklar və çimərliklər üçün 150 hektardan çox ərazi ayrılıb.

Əsas layihələri sahil zolağında yerləşən “Sea Breeze” gələcəkdə ölkəmizin turizm imkanlarını artıracaq və Azərbaycanı turizm baxımından daha cəlbedici edəcək.

Nəhəng 11 mərtəbəli layner formasında inşa edilən mənzillərdən və hotel nömrələrindən ibarət flaqman daşınmaz əmlak layihəsi olan “Caspian Dream Liner” süni adada tikiləcək. Burada apart-hotel, ticarət mərkəzi və hovuzlar yaradılacaq. Bu unikal memarlıq quruluşu sayəsində “Sea Breeze” qlobal turizm xəritəsində daha da cəlbedici məntəqəyə çevriləcək.

İrimiqyaslı layihə fondunun hazırlanmasında bir neçə yerli və xarici memarlıq bürosu işləyir, layihələndirmə işlərinə dünyaşöhrətli memarlar cəlb olunur.

2028-ci ilədək burada daha 700 binanın tikilməsi, həmçinin ümumilikdə 50 hektar sahəni əhatə edən aypara şəklində nadir süni yarımadanın yaradılması nəzərdə tutulub. Bu layihədə dünyanın aparıcı mehmanxana şəbəkələrinin hotelləri, ticarət mərkəzləri, yaxtalar üçün dayanacaqlar, 40 mindən çox tamaşaçı tutumu olan konsert meydançası yer alacaq.

“Sea Breeze”də həyata keçirilən işlər həm də mühüm sosial rol oynayır, yeni iş yerlərinin açılmasına töhfə verir. Hazırda kompleksdə 6560 nəfər işlə təmin edilib və gələcəkdə bu rəqəmin xeyli artırılması nəzərdə tutulur. Burada yatırılan investisiyaların ümumi həcmi artıq 3 milyard dollar təşkil edir, yaxın beş ildə isə daha 5 milyard dollardan çox sərmayələrin cəlb edilməsi planlaşdırılır. 2024-cü ilin yekunlarına görə, “Sea Breeze” ölkə iqtisadiyyatına mühüm töhfə verərək Azərbaycan Respublikasının ən iri vergiödəyiciləri sırasında yer alıb.



# Azərbaycan dünyanın tolerantlıq mərkəzidir

## *Prezident İlham Əliyev Pasxa bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasını təbrik edib*

***Bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlət olan Azərbaycan dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük mərkəzi kimi tanınır. Hazırda, Azərbaycanda onlarla milli azlığın nümayəndəsi - rus, ukrayn, tat, kürd, belorus, talış, yəhudi, türk, alman, ləzgi, tatar, avar, gürcü, saxur, udin və s. yaşayır. Onlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar.***

Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatarlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti və s. göstərmək olar. Bütün xalqların nümayəndələri öz ayinlərini, milli bayramlarını sərbəst şəkildə yerinə yetirirlər. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Yüz illər boyu burada məskunlaşıb yaşayan hər kəs üçün doğma Vətən olan Azərbaycanda bu gün də müxtəlif etnik qrupların və etiqadların nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Ölkəmizdə xalqlararası dostluğun və dinlərarası harmoniyanın qorunması, yüksək birgəyaşayış mədəniyyətinin və demokratik ictimai-mənəvi dəyərlərin təşviqi, qlobal miqyasda sivilizasiyalararası dialoqun təbliği mütərəqqi milli-tarixi ənənəyə əsaslanan dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir. Dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan müasir Azərbaycan Respublikasında bütün etnik və dini azlıqlara, o cümlədən xristian icmasına öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanmaq, adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradılmışdır".

### "XRİSTİAN ETİQADLI VƏTƏNDAŞLARIMIZ ÖLKƏNİN İCTİMAİ-SİYASİ VƏ MƏDƏNİ HƏYATINDA LAYİQİNCƏ TƏMSİL OLUNUR"

Prezident İlham Əliyev Pasxa bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına təbrik məktubu ünvanlayıb. Dövlətimizin başçısı məktubunda zəngin tolerantlıq ənənələrinə malik Azərbaycanda tarixin heç bir dönəmində din və məzhəb zəminində ayrı-seçkilik hallarının olmadığını, etnomədəni müxtəlifliyin günümüzədək qorunub saxlanıldığını bildirib. Azərbaycan Prezidenti qeyd edib ki, cəmiyyətimizdə qarşılıqlı hörmətə və etimada əsaslanan birgəyaşayış mədəniyyətinin, mütərəqqi ictimai-əxlaqi dəyərlərin təbliği və təşviqi dövlət siyasətinin başlıca istiqamətlərindəndir. "Bu gün milli-mənəvi həmrəyliyin və nümunəvi dözümlülük mühitinin hökm sürdüyü cəmiyyətimizdə xristian icmasının özünəməxsus yeri vardır. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, xristian etiqadlı vətəndaşlarımız ölkənin ictimai-siyasi və mədəni həyatında layiqincə təmsil olunur, doğma evimiz Azərbaycanın inkişafına və tərəqqisinə əhəmiyyətli töhfələr verirlər", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Pasxa bayramının yeniliyi, dirçəlişi, mərhəmət və xeyirxahlıq duyğularını təcəssüm etdirdiyini bildirən dövlətimizin başçısı Azərbaycanın bütün xristian icmasına xoş bayram ovqatı, sevinc və rifah arzulayıb.

Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, başəriyyətdə isə sülh deməkdir. Təbii ki, multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı məhz ilk növbədə çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Bir sözlə, Azərbaycan bu sahədə dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib.

### "HEÇ VAXT BAŞQA DİNLƏRƏ QARŞI MƏNFİ MÜNASİBƏT GÖSTƏRMƏMİŞİK, DÜŞMƏNÇİLİK ETMƏMİŞİK, ƏDAVƏT APARMAMIŞIQ"

Azərbaycan xalqının adət-ənənələri, milli-mənəvi dəyərləri, mədəniyyəti ilə fəxarət hissi keçirən Ulu Öndər Heydər Əliyev dini abidələrə, mədəniyyət ocaqlarına ehtiyatla yanaşır, böyük həssaslıqla qayğı göstərdi. 1994-cü ildə Səudiyyə Ərəbistanında rəsmi səfərdə olan Ulu Öndər Heydər Əliyev islam dininə olan yüksək etiqadı, rəğbətinin təcəssümü kimi Məkkə şəhərini və Kəbəni ziyarət etdi. Bir neçə il sonra 1998-ci ildə isə Həcc ziyarətində oldu. Bu islami dəyərlərə olan münasibət idi. "Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik", - deyən Ulu Öndər Heydər Əliyev qeyd edirdi ki, Azərbaycanda islam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır: "Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kimisə xoş gəlməyən adətənənələrinə dözümlü olmalıdırlar". Ulu Öndər Heydər Əliyevin siyasi irsini və əsasını qoyduğu ənənələri inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev yürütdüyü siyasət dini konfessiyaların dinc yanaşı yaşamasını, qarşılıqlı əlaqəsini, müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə səy göstərmələrini təşviq edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə İslam, xristian və digər səmavi dinlərin mədəniyyət nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş, inanc yerlərinin təmiri və bərpası ilə bağlı görülən işlər deyilənləri bir daha təsdiqləyir.

Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir. Ölkəmizdə 2250-dən artıq məscid mövcuddur, eləcə də 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bundan əlavə, Zaqatala və Balakən rayonlarında 127 hücrə vardır ki, onların 115-də Ramazan ayında və dəfn mərasimlərində ayin icra olunur. Ölkə ərazisində 23 xristian dua evi, 1 bəhai, 1 krişna ibadətgahı mövcuddur. Bununla yanaşı, hazırda Azərbaycanda dövlət qeydiyyatına alınmış 942 dini qurum fəaliyyət göstərir. Onlardan 907-si İslam, 35-i qeyri-islam təmayüllü (24-ü xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru) dini qurumlardır. Ölkə başçısının göstərişi ilə bütün əsas dini abidələr təmir olunub.

### "TOLERANTLIĞIN ÜNVANI - AZƏRBAYCAN"

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanınır. Ölkəmizdə abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzi, Katolik məbədi, İmamzadə kompleksi Azərbaycanda olan mühitin təzahürüdür. Bütün bunlarla yanaşı, Rus Pravoslav Baş Kafedral Kilsəsi, "Xilaskar" Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Bundan əlavə, Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində reallaşdırılıb. O cümlədən, Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Azərbaycan təkcə ölkə daxilində deyil, dünya miqyasında da xristian irsinin qorunmasına töhfələr verib. Ölkəmizin dəstəyi ilə Vatikanda yerləşən Müqəddəs Sebastian katakombalarının, Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış "Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş" çərçivəsində Roma şəhərində Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası və s. ölkəmizin dini tolerantlığının nümunəsidir.

### TOLERANTLIQ ƏNƏNƏLƏRİNİ DÜNYADA TANITMAQ HƏDƏFİ

Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum Sərəncamı ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Multikulturalizm Mərkəzi yarandığı vaxtdan etibarən Prezidentin müəyyənləşdirdiyi Azərbaycanı, ölkəmizin multikultural dəyərlərini, tolerantlıq ənənələrini dünyada tanıtmaq hədəfini qurumun aparıcı istiqaməti elan edib. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi. Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı əsasında Azərbaycan İlahiyyat İnstitutunun yaradılması xalqın tarixi ənənələrinə söykənən dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı milli kadrların hazırlanması baxımından səmərəli addımlardan biri olub. Dövlət tərəfindən multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılması istiqamətində həyata keçirilən multikulturalizm siyasəti və bu istiqamətdə reallaşan tədbirlər dünya dövlətləri üçün nümunəyə çevrilib. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşaması üçün bütün şərait yaradılıb. Ölkəmizdə heç bir millətin, milli və ya dini azlığın nümayəndəsinə onların dini mənsubiyyətlərinə görə başqalarından üstün olmaq kimi ideyaları aşılamaq yolverilməzdir.

Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, biz nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya nümunə də göstəririk: "Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk".

***Zümrüd BAYRAMOVA***

# Tramp Çinlə Avropanı necə yaxınlaşdırır?






*ABŞ prezidenti Donald Tramp, davam edən ticarət tarifləri fonunda, qarşıdakı ayda Çinlə razılığa gələ biləcəyini söyləyib. Və əlavə edib ki, Çinə qarşı tariflərin daha da artırılmasını istəməz. “Düşünürəm ki, biz Çinlə razılığa gələcəyik... Düşünürəm ki, qarşıdakı üç-dörd həftə ərzində, məncə, bəlkə bütün bu işlər tamamlana bilər”, Tramp Ağ Evdə jurnalistlərə bildirib. Çinin ABŞ-a qarşı əlavə əks tədbirlər görəcəyi təqdirdə ABŞ-ın nə edəcəyi ilə bağlı suala prezident deyib ki, o, tariflərin qalxmasını istəmir, çünki insanlar “almağı dayandıracaqlar”.*



Daha əvvəl Donald Tramp Çinlə “çox yaxşı” ticarət razılaşmasının əldə edilə biləcəyinə inandığını bildirərək, ABŞ-ın idxala tətbiq etdiyi yüksək tariflər fonunda Çin və Aİ-nin yaxınlaşma ehtimalından narahat olmadığını bildirib. Donald Tramp aprelin 2-də 185 ölkədən gələn mallara 10-50%-lik rüsumlar tətbiq edib. Bir həftə sonra Tramp Aİ ölkələri də daxil olmaqla 75 ölkəyə tariflərin tətbiqini 90 gün müddətinə təxirə salıb. Çinə qarşı tariflər 145%, Çinin cavab tədbirləri isə 125% təşkil edir.

### Dünyanın tarif səfərbərliyi

Amerika və Çin arasında ticarət müharibəsi getdikcə güclənir. ABŞ-ın maliyyə naziri Scott Bessent Pekinə təzyiqi artırmaq əzmini təsdiqləyib və hətta Çinin “böyük razılaşma” ilə razılaşmaqdan imtina edəcəyi təqdirdə iki ölkə arasında ticarət və iqtisadi əlaqələrin kəsilməsini istisna etməyib. The Wall Street Journal (WSJ) qeyd etdiyi kimi, digər ölkələrlə tarif danışıqlarında ABŞ administrasiyası onlardan ticarət güzəştləri müqabilində Çin iqtisadiyyatını təcrid etmək öhdəliyini tələb edəcək. Bu kontekstdə Çin prezidenti Xi Jinping Cənub-Şərqi Asiyaya səfəri zamanı qlobal azad ticarət sistemini qorumağa və “birtərəfli zorakılığa müqavimət göstərməyə” çağırır. ABŞ-ın maliyyə naziri Scott Bessent Pekin ilə Vaşinqton üçün faydalı olacaq razılaşmanın əldə olunmaması halında ən radikal ssenariləri istisna etməyərək Çinlə ticarət müharibəsinin həlledici mərhələyə keçdiyini açıqlayıb.

Aprelin 15-də Bloomberg-də prezident Trampın aprelin 2-də Çin mallarına tətbiq etdiyi tariflər və Çinin cavab tədbirləri barədə danışan ABŞ maliyyə naziri izah edib ki, Vaşinqton Çindən idxal olunan mallara yüksək tarifləri saxlamaq istəməz və gələcəkdə onlardan imtina etməyə hazır olacaq. Bununla belə, onun sözlərinə görə, bu, yalnız Pekinin ABŞ-la “böyük sövdələşməyə” razılıq verəcəyi təqdirdə mümkün olacaq. Əgər bu baş verməsə, Ağ Ev bütün yolu getməyə, hətta Çinlə ticarət əlaqələrini tamamilə pozmağa hazırdır.

Scott Bessent xəbərdarlıq edib: ”Bunun baş verməsi lazım deyil. Amma bu baş verə bilər. ”Hansısa bir anda böyük bir razılaşma əldə edilməlidir. Amerikada mallarına görə hər birinə fərdi faiz idxal rüsumları təyin edilmiş 185 ölkənin qara siyahısının dərcindən iki həftə sonra Vaşinqton bu ölkələri Amerika tərəfi ilə yeni ticarət sazişləri üzrə qarşıdan gələn danışıqlar zamanı “Çin komponentini” nəzərə almağa çağırır.




WSJ-nin Ağ Evdəki mənbələrə istinadən qeyd etdiyi kimi, Tramp administrasiyası ABŞ-ın ticarət tərəfdaşlarına təzyiq göstərmək üçün gələcək tarif danışıqlarından istifadə etmək niyyətindədir və onlardan Çinlə əlaqələrini mümkün qədər məhdudlaşdırmağı tələb edir. “İdeya ABŞ-ın ticarət tərəfdaşlarını Ağ Evin qoyduğu ticarət maneələrini azaltmaq müqabilində Çin iqtisadiyyatını təcrid etmək öhdəliyinə götürməkdir”, WSJ yazır.

Nəşrin yazdığına görə, 70-dən çox ölkə ilə danışıqlarda amerikalı nümayəndələr, xüsusilə də, bu ölkələr vasitəsilə Çin mallarının tədarükünün qadağan edilməsində, həmçinin Amerika tariflərindən yayınmaq üçün Çin şirkətlərinin öz ərazilərində yerləşdirilməsi imkanlarının aradan qaldırılmasında israrlı olacaqlar. Vaşinqtonun dəqiq tələbləri, Çin iqtisadiyyatı ilə əlaqələrin səviyyəsini nəzərə alsaq, ölkədən ölkəyə əhəmiyyətli dərəcədə dəyişə bilər. Bununla belə, ümumilikdə, hazırlanmaqda olan tədbirlər “Çinin onsuz da sarsıntılı olan iqtisadiyyatını sarsıtmaq, Pekini danışıqlar masasına oturtmaq və Çinin sədri Si Cinpinlə prezident Tramp arasında potensial danışıqlarda Çinin təsir imkanlarını azaltmaq məqsədi daşıyır”.

### Ticarət müharibəsinin xronikası

ABŞ rəsmilərinin şərhləri göstərir ki, ABŞ-Pekin ticarət qarşıdurması artıq ikitərəfli məsələ deyil və nəticədə Trampın “tarif siyahısı”ndakı 185 ölkənin hər birini çətin seçimlər etməyə məcbur edəcək. ABŞ Federal Rabitə Komissiyasının (FCC) rəhbəri Brendan Karr aprelin 15-də bəyan etdiyi kimi, Avropa İttifaqı Vaşinqtonla gələcək əməkdaşlıq üçün Amerika və Çin telekommunikasiya şirkətləri arasında seçim etməli olacaq. ”Düşünürəm ki, Avropa ABŞ və Çin arasında bir az sıxışıb. ”Seçim etmək vaxtıdır” deyən Brendan Karr “Financial Times”-a müsahibəsində xəbərdarlıq edərək, Avropa Komissiyasını ”proteksionizmdə” və Avropa tənzimləyicilərinin Amerika texnologiya şirkətlərinə qarşı ”qərəzli” olduğunu bildirib”. Finlandiyanın Nokia və İsveçin Ericsson kimi Avropa telekommunikasiya nəhənglərinə gəlincə, onlardan Trampın ticarət tarifləri ilə üzləşməmək üçün istehsalı ABŞ-a köçürmələri xahiş olunur.

Bundan əvvəl Çin prezidenti Si Cinpin İspaniyanın baş naziri Pedro Sançeslə görüşündə bildirib ki, Pekin “hər iki tərəfə və beynəlxalq ictimaiyyətə daha çox fayda gətirmək” üçün Çin və Aİ arasında münasibətləri inkişaf etdirməyə hazırdır. Vaşinqtonun ona qarşı ümumi hücumuna cavab olaraq, Çin rəhbərliyi müdafiəyə keçib və həm Avropada, həm də Asiyada mümkün olan ən güclü arxa cəbhəni təmin etməyə çalışır. “The Guardian” aprelin 16-da yazıb ki, Böyük Britaniyanın biznes və ticarət naziri Conatan Reynolds Pekinlə ticarət mövzusunda dialoq qurmaq üçün bu il Çinə səfər etmək niyyətindədir. Qəzetin yazdığına görə, səfərin məqsədi 2018-ci ildən bəri iclas keçirməyən Birgə İqtisadiyyat və Ticarət Komitəsinin (JETCO) işini bərpa etməkdir: “Reynoldsun planlaşdırılan səfəri göstərir ki, Böyük Britaniya hökuməti Pekinlə yaxınlaşmaqdan əl çəkmək niyyətində deyil”, – qəzet qeyd edir.

### Si Cinpin Şərqi Asiya ölkələrini necə inandırır?

Öz növbəsində, ötən həftə Pekində İspaniyanın Baş naziri Pedro Sançes ilə görüşən Çin Xalq Respublikasının sədri Si Cinpin də Cənub-Şərqi Asiya turunu davam etdirir və bu səfər çərçivəsində aprelin 16-da üç günlük dövlət səfəri üçün Malayziyaya gəlib.

Ardı Səh. 5

# Tramp Çinlə Avropanı necə yaxınlaşdırır?



**Əvvəli-Səh-4**

Səfər proqramına Si Cinpin və Malayziyanın ali dini lideri Sultan İbrahim və baş nazir Ənvər İbrahim arasında görüşlər daxildir. Çin prezidenti bundan əvvəl 2013-cü ildə Malayziyaya səfər edib. 12 illik fasilədən sonra Kuala-Lumpurda keçiriləcək yeni Çin-Malayziya sammitindən əvvəl Çin prezidentinin Vyetnama iki günlük dövlət səfəri olub. Nəticədə Çin-Vyetnam hərtərəfli strateji tərəfdaşlıq çərçivəsində tərəflər müxtəlif sahələrdə 40-dan çox saziş imzalayıblar. "Həm Çin, həm də Vyetnam iqtisadi qloballaşmadan faydalanır, ona görə də biz strateji qətiyyəti gücləndirməliyik, birtərəfli zorakılığa birgə müqavimət göstərməliyik, qlobal azad ticarət sistemini və sənaye və təchizat zəncirlərinin sabitliyini qorumalıyıq", - Si Hanoyda Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi To Lam ilə görüşü zamanı deyib.

The Wall Street Journal öz redaktor məqaləsində qeyd etdiyi kimi, Amerika idxal tarifləri son nəticədə Çinə Cənub-Şərqi Asiyada öz mövqeyini möhkəmləndirməyə və ABŞ-a alternativ kimi çıxış etməyə imkan verəcək. "Prezident Trampın ticarət müharibəsi haqqında nə deyirlərsə desinlər, bu, Çin üçün yeni iqtisadi və diplomatik imkanlar açır. Əgər ABŞ özünü Cənub-Şərqi Asiya ölkələrindən bağlasa, Çin tezliklə onlar üçün əsas oyunçuya çevriləcək", WSJ proqnozlaşdırır.

### Brüssel Vaşinqtona təslim olacaqmı?

ABŞ-ın vitse-prezidenti J.D.Vens bu yaxınlarda Avropanı müdafiə məsələlərində Amerikanın "vassalı" olmamağa çağırıb. O, Britaniyanın "UnHerd" analitik portalına müsahibəsində bildirib ki, əksər Avropa ölkələrində onların təhlükəsizliyini təmin etməyə qadir silahlı qüvvələr yoxdur. Vensın fikrincə, Köhnə Dünyanın müdafiə məsələlərində daha böyük müstəqilliyi ABŞ üçün də faydalı olacaq, çünki Vaşinqton Avropanı öz müttəfiqi kimi qəbul edir. "Biz sadəcə olaraq bunun avropalıların daha müstəqil olduğu bir ittifaq olmasını istəyirik.

Bizim təhlükəsizlik və ticarət əlaqələrimiz bunu əks etdirəcək", - vitse-prezident əlavə edib.

Donald Trampın "Amerikanın Qurtuluş Günü" adlandırdığı və bütün dünya ilə açdığı ticarət müharibəsinin əsas döyüşü ABŞ və Aİ arasında olacaq. 2024-cü ilin sonuna olan məlumata görə, onlar arasında mal və xidmət ticarətinin həcmi rekord həddə - 2 trilyon dollar təşkil edib. Amma problemin miqyası daha böyükdür. Amerika Ticarət Palatasının məlumatına görə, ABŞ və Aİ arasında ticarət müharibəsi 9,5 trilyon dollar dəyərində bütün transatlantik biznesi risk altına qoyur.

2025-ci ilin əvvəlindən Ağ Ev davamlı olaraq Avropa İttifaqına təzyiqləri artırır. Tramp öz mövqeyini açıq şəkildə ifadə edib: "Bizim ölkədə artıqlıq və sənayesizləşdirmə yaratmaqla bizdən pul qazanan tərəfdaşlara ehtiyacımız yoxdur". O, Aİ ölkələrini pulsuz yükləməkdə günahlandırıb və Brüsselin ABŞ-a qarşı "tamamilə dəhşətli" davrandığını qeyd edib. Əslində Tramp Avropanı müttəfiqdən daha çox rəqib kimi görür. Lakin Avropa Amerikanı bu cür dərk edə bilməz, çünki o, özünün hərbi-siyasi qurum kimi müstəqil mövcud ola biləcəyinə əmin deyil. Və hələ də amerikalıların "Köhnə Dünya"da olduğundan daha az ABŞ-a təzyiq rıçaqları var. Bloomberg hesablamalarına görə, Trampın tarifləri Aİ ixracatına 431 milyard dollardan çox təsir edir.

Görünür, Aİ ABŞ-ın rüsumlarına cavab olaraq Amerika məhsullarına tariflər hazırlayır. Bununla belə, 22 milyard dollarlıq yeni Avropa tarifləri hələlik qüvvədə olmayacaq. Onlar aprelin 14-dən etibarən 90 gün müddətinə təxirə salınıb. Avropa Komissiyasının press-relizinə görə, gecikmə Aİ və ABŞ arasında danışıqlara "vaxt və məkan" vermək üçün lazımdır. Lakin Aİ-nin Ticarət və İqtisadi Təhlükəsizlik Komissarı Maro Şefçoviç fikir ayrılıqlarının aradan qaldırılmasında irəliləyiş əldə etmədən Vaşinqtondan qayıdıb. ABŞ administrasiyası Aİ-nin üzərinə qoyulan ticarət manevələrinin əsas hissəsini tamamilə aradan qaldırmaq niyyətində olmadığını bəyan edib. Buraya həm 20 faiz "güzgü rüsumları", həm də metal və avtomobil idxalı tarifləri (25%) daxildir.

İndi Aİ ümid edir ki, İtaliyanın baş naziri Giorgi Melonun ABŞ-a cümə axşamı başlayan səfəri və Trampla görüşü Ağ Evin tariflərlə bağlı tələblərinə işıq salacaq. O, ABŞ prezidentinə ideoloji yaxınlığından istifadə edərək onu Aİ-nin maraqlarını nəzərə almağa inandırmaq istəyir. Və eyni zamanda, ticarət və müdafiə xərcləri məsələlərində aktual ziddiyyətləri həll etmək üçün ABŞ-Aİ sammitinin təşkilinə nail olmaq istəyir. Belə bir sammit Tramp və Aİ-nin ümumi ticarət siyasətinə cavabdeh olan Avropa Komissiyasının sədri Ursula fon der Leyen arasında ilk birbaşa danışıqlara imkan verəcək.

Von der Leyen Trampın hərəkətlərini "qlobal iqtisadiyyata ciddi zərbə" adlandırıb və danışıqlar uğursuz olarsa, əks tədbirlər görəcəyini – tarif müharibəsini təkcə mallara deyil, həm də Trampın adətən unutduğu xidmətlərə də şamil edəcəyini vəd edib. Aİ Amerika İT nəhənglərinin Avropa bazarında əldə etdikləri gəlirlərə əlavə vergilər tətbiq edə bilər. Maraqlıdır ki, ABŞ-a meydan oxuyan Avropa İttifaqı Çinlə öz oyununu oynamağa başlayıb. Von der Leyen Çin Dövlət Şurasının Baş naziri Li Qianq ilə Vaşinqtonun tarif siyasətini və Pekin və Brüssel arasında münasibətlərin gələcəyini müzakirə edib. Çin qeyd edib ki, Çin və Aİ "ən mühüm ticarət tərəfdaşlarıdır" və onların "maraqları bir-biri ilə sıx bağlıdır".

### Aİ və Çin arasında mümkün yaxınlaşma

Trampın tarif siyasətinə görə ABŞ və Aİ



*Donald Trampın "Amerikanın Qurtuluş Günü" adlandırdığı və bütün dünya ilə açdığı ticarət müharibəsinin əsas döyüşü ABŞ və Avropa İttifaqı arasında olacaq.*

arasında münasibətlərin pisləşməsi Çinin Amerika prezidenti ilə ticarət qarşıdurmasında yeni müttəfiq tapmasına səbəb ola bilər. Amerika və Avropa mediası Tramp administrasiyasına zidd olaraq Aİ və Çin arasında yaxınlaşma şanslarını belə qiymətləndirir.

### Washington Post (Vaşinqton, ABŞ)

*Tramp Avropa və Çini bir-birinin qucağına itələyir*

Son aylarda Tramp administrasiyası Avropa seçkilərinə müdaxilə edib, Qrenlandiyanı işğal etməklə hədələyib və Aİ mallarına şikəst rüsumlar tətbiq edib. Aİ Trump-ın xaosuna qarşı mərcləri hedcinq etməyə çalışdıqca və Pekin ABŞ tariflərinə qarşı mübarizə apararkən, Aİ-Çin arasında mümkün razılaşmanın konturları getdikcə daha çox ehtimal olunur. Avropa keçən il Çinin elektrik avtomobillərinə tətbiq etdiyi tarifləri qaldıraraq bazarını Çin mallarına açıq saxlamağa razılaşacaq. Bunun müqabilində Çin Aİ-yə ixracını məhdudlaşdırmağa, investisiyaları artırmağa və keçən il Aİ-nin elektrikli avtomobillərə tətbiq etdiyi tariflərə cavab olaraq Aİ-nin brendi, donuz əti və süd məhsulları idxalına qarşı ticarət iddialarını dayandırmağa razı olacaq.

### Financial Times (London, Böyük Britaniya)

Si Cinpin Şərqi Asiya ölkələrini ABŞ diktatına təslim olmamağa çağırıb

Donald Trampın ticarət müharibəsi fonunda Çin rəsmiləri və şirkətləri Aİ ilə daha sıx əlaqələrə can atırlar. Lakin Aİ ABŞ-dan yönləndirilən mallar üçün zibilxanaya çevrilmək fikrinə dərin şübhə ilə yanaşır. Pekin öz malları üçün alternativ bazarlar tapmaq ümidi ilə dünyanın ən böyük ticarət bloku ilə əlaqələri gücləndirməyə çalışır. Son həftələrdə Çin Avropa paytaxtlarına ticarət nümayəndə heyətləri göndərdi və fabriklər malların qitədəki bazarlara yönləndirilməsi imkanlarını araşdırır. Aİ liderləri, Çinlə əlaqəli tədarük zəncirlərinin "riskdən azad edilməsi" zərurəti ilə bağlı əvvəlki bəyanatlardan fərqli olaraq, daha sıx əməkdaşlığa ehtiyacdan da açıq şəkildə danışdılar.

The Guardian (London, Böyük Britaniya)

Brexit-in daha da ağırlaşdığı dilemma

Brüsseldə və digər Avropa paytaxtlarında aydın olur ki, Vaşinqton artıq etibarlı müttəfiq deyil və Avropa üçün trayektoriya "strateji muxtariyyət"ə doğru olmalıdır. Bu, istər-istəməz daha praqmatik Çin siyasətinin risklərinin və potensial faydalarının hesablanmasıdır. Xi Jinping rejiminin avtoritar xarakteri dəyişməyib, lakin o, özünü beynəlxalq məsələlərdə daha proqnozlaşdırıla bilən qüvvə kimi təqdim edir, ABŞ demokratiyası isə şiddətli spazmlarda tənəzzül edir.

### Daily Telegraph (London, Böyük Britaniya)

*Tramp Avropanı tənqid edərkən Çin irəliləyir*

Trampın ticarət müharibəsi Çinə qlobal ticarət və investisiyaların pariya nəhəngi kimi imicini itirmək və qeyri-sabit və gözlənilməz ABŞ-dan fərqli olaraq sabitliyin sütunu kimi meydana çıxmaq imkanı verib. Bəzi Aİ-yə üzv dövlətlər isə artıq həvəslə...

### Merkur (Münhen, Almaniya)

*Amerika-Çin ticarət müharibəsi güclənir*

Trampın populyarlığı dollar kimi çökür. Bu, Aİ üçün danışıqlar pəncərəsi açır. Daha dəqiq desək, geniş açıqdır. Eyni zamanda, Çin avropalılara rəğbət bəsləyir və özünü azad ticarətin sütunu kimi təqdim edir, əslində bu heç vaxt olmayıb. Heç kim Pekindən gələn yüksək tariflərə aldanmamalıdır: Çin özünün iddia etdiyi etibarlı tərəfdaş deyil. Bu cazibədar hücum həqiqətən ABŞ-da sata bilməyəcəyi malları ilə Avropanı doldurmağa yönəlib. Lakin İspaniyanın baş naziri Sançesin Pekində etdiyi kimi, Çinin qucağına tələsmək əvəzinə, Avropa Trampın acınacaqlı vəziyyətindən istifadə edərək Aİ və ABŞ arasında yaxşı bir razılaşma əldə etməlidir. Niyə hər iki tərəfdən rüsumları sıfıra endirməyək? Əgər Tramp Çinlə qarşıdurmada qalib gəlmək istəyirsə, onun avropalılara ehtiyacı olduğu kimi, Avropanın da ABŞ-ın nüvə qalxanı Putinə qarşı müdafiəyə ehtiyacı var.

***V.VƏLİYEV***

**P.S.** *Məqalədə xarici mənbələrə istinadlar var*

# Uşağımızın adı və ona edilən MÜDAXİLƏLƏR



***Uşaqlara adqoyma prosesi çox vaxt valideynlər üçün çətin olur. Bu prosesdə uşaqlara qoyulan adların psixoloji təsirlərinin də nəzərə alınması vacibdir.***

Bir çox ailələrdə ailə böyükləri ad qoyma məsələsinə müdaxilə də edir. Amma hər bir halda övladının adını onun rəhbəri, yəni ata və anası birlikdə təyin etməlidir. Yəni, hər kəs ad qoyma haqqını öz övladında istifadə etməlidir.

Sia mövzu ilə bağlı araşdırma aparıb.Bu proses zamanı "Uşağımıza hansı ad daha çox yaraşar?", "Qardaşının yaxud bacısının adına uyğun gəlməlidirmi?", "Bu ad gözəl səslənir, onu belə adlandırmalıyıq?", "Bu adın gözəl mənası varmı?", "Qeyri-adi bir ad tapmalıyıqmı?", "Ona ailəmizdə olan ad qoymalıyıqmı?" kimi suallara qərar vermək olduqca çətin olsa da tez-tez ağla gələn bu sözü seçərkən uşağı bütün həyatı boyu tanıdacaq bir çox amillər nəzərə alınmalıdır.

### Uşaqlara ad qoyarkən nələrə diqqət etməli?

Yeni doğulan uşağa ad qoymaq valideynlər üçün ən çətin pro-



seslərdən biridir. Bəs, uşağa ad qoyarkən nələrə diqqət etməlisiniz? Gəlin birlikdə nəzər salaq.

### Həm qız, həm oğlan adı olan adlardan çəkinin

Uşaqların inkişaf dövrlərində, xüsusən də konkret əməliyyat dövründə (7-11 yaş) uşaqlar qarşı cinsdən rastlaşdıqları zaman qız və ya oğlan adları olduğuna inandıqları adlara lağ edə bilərlər. Sosial münasibətlərdə və özünə inamda problemlər uşaqlara qoyulan adların psixoloji təsiri kimi qəbul edilə bilər.

Uşağınız yetkin olanda belə, bu vəziyyət onun işgüzar yazışmalarında problemlər yarada bilər. Qarşı tərəf çaşqınlıq içində ola bilər ki, sizə "xanım", yoxsa "cənab" deyə müraciət etsin. Tələffüzü asan, uşağın oğlan və ya qız olduğunu bildirən ad qoymaq lazımdır.

### Çətin tələffüz olunan adlardan qaçmaq

Tələffüz edilməsi çətin olan adlar da uşaqlıqda başqaları tərəfindən hədəfə alına və ələ salına bilər. Bundan əlavə, tələffüz edilməsi çətin olan adların yadda saxlanması və başa düşülməsi çətinləşəcək, ad teztez səhv yazıla bilər, yadda qalmaya bilər və



övladınız davamlı olaraq kiməsə adını xatırlatmalı və onu təkrarlamalıdır. Çətin tələffüz edilən və uşaqlara qoyulan adların psixoloji təsiri uşaqda həm uşaqlıqda, həm də yetkinlikdə sıxıntı yarada bilər.

### Dövrün tanınmış adamlarının adlarından qaçmaq

Bu gün önəmli yeri olan və adları uşaqlara verilən insanlar (siyasətçilər, sənətçilər, aktyorlar, idmançılar və s.) gələcəkdə mənfi profil çəkə bilərlər.

### Adın mənasına diqqət edin

Uşaqlara ad verərkən onların mənasına çox həssas yanaşmaq lazımdır. Əks halda, bu, uşaqların öz adlarının mənasına uyğunlaşmaq üçün şüursuz səy göstərməsinə səbəb ola bilər.

Ölən ailə üzvünün adını çəkməkdən çəkinmək:

Ölən ailə üzvünün adını övlad vasitəsilə yaşatmağa çalışmaq uşaq üçün böyük yükdür. Uşaq doğulduğu andan ailədə ağsaqqala aid edilən bütün xüsusiyyətləri uşaqdan gözləmək olar. Məsələn, uşağın vəfat etmiş ağsaqqal kimi uğurlu, çalışqan, səbirli, yaxşı, mərhəmətli, ağıllı və s. Bunun baş verməsi gözlənilir və uşaq istər uşaq, istərsə də böyüklər kimi bu xüsusiyyətlərə zidd bir vəziyyətə düşdükdə, mübarizə aparmağa başlayır.

Sonda qeyd edək ki, uşaqlara verilən adların psixoloji təsiri olduğu üçün uşaqlara ad qoyarkən yaxşı düşünmək lazımdır. "İnsan öz adı ilə yaşayır." Deyilənlərə əsaslanaraq, uşağa ad qoyarkən unutmaq olmaz ki, nə vaxtsa onun adı da onun bəxt və tale anlayışını formalaşdırır. Gözəl səslənmək, fərqli olmaq, gözəl məna daşımaq, ailə üzvlərinin adlarına uyğun gəlmək kimi xüsusiyyətlər ilk baxışda yaxşı görünsə də, gələcəkdə övladınıza zərər verə bilər. Ona görə də övladınıza verəcəyiniz adı seçərkən öz zövqünüzə və istəklərinizə deyil, adın uşağınız üçün xüsusi olmasına və heç kimdən asılı olmamasına diqqət yetirməkdə fayda var.

***Ayşən Vəli***

# Övladlığa uşaq götürmək üçün hansı şərtlər tələb olunur?



"Övladlığa götürmə vaxtı ilk növbədə uşağın mənafeyinə uyğunluğunun müəyyən edilmədir. Övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) müsahibə aparılır". Bu sözləri Sia-ya açıqlamasında vəkil Ramil Vəliyev deyib.

Onun sözlərinə görə, övladlığa götürmək istəyən şəxs təlimlərə cəlb edilir. Övladlığa götürülən uşaq sınaq müddətində uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) evində yerləşdirilə bilər: "Övladlığa götürmə barədə məhkəmə qətnaməsi ilə həyata keçirilir. Övladlığa götürmək üçün müraciət edən şəxslərə dair müəyyən məhdudiyyətlər mövcuddur. Aşağıda göstərilən şəxslər övladlığa götürmə vaxtı imtina edilə bilər.

**1.** Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər;

**2.** Məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər;

**3.** Qanunla üzərinə qoyulan vəzifəni yerinə yetirmədiyinə görə qəyyum və ya himayəçi vəzifələrindən kənarlaşdırılmış şəxslər;

**4.** Əvvəllər məhkəmə tərəfindən təqsirkar bilinərək bu hüququ ləğv edilmiş şəxslər;

**5.** Səhhətinə görə valideyn vəzifələrini həyata keçirə bilməyən şəxslər;

**6.** Məhkumluğun götürülməsi və ödənilməsi nəzərə alınmadan, sülh və insanlıq, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə, həyat və sağlamlıq, şəxsiyyətin azadlığı və ləyaqəti, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə qəsdən törədilən ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər və bu cinayətləri törətdiyinə görə barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş şəxslər;

**7.** Barəsində cinayət təqibi üzrə icraat aparılan şəxslər, cinayət təqibi müddətində;

8. Ailədə adambaşına düşən orta aylıq gəliri ailə üzvlərinin hər biri üçün (övladlığa götürüləcək uşaq da nəzərə alınmaqla) ölkə üzrə müəyyən olunmuş yaşayış minimumunun məbləğindən (Azərbaycan Respublikası vətəndaşı olan uşaqları övladlığa götürmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün yaşadıqları ölkə üzrə orta aylıq əməkhaqqının 2 (iki) mislindən) az olan şəxslər (ögey ata (ögey ana) və qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla);

**9.** Övladlığa götürməyə, qəyyumluğa və himayəyə qəbul etməyə imkan verməyən xəstəliklərin siyahısı ilə müəyyən edilmiş xəstəlikləri olan şəxslər;

**10.** Nikahda olmayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları);

**11.** Mülkiyyətində, orada yaşayan hər bir şəxs nəzərə alınmaqla yerləşdiyi ölkənin müvafiq qanunvericiliyinə əsasən minimum normadan az yaşayış sahəsi olan Azərbaycan Respublikası vətəndaşı olan uşağı övladlığa götürmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

**12.** Ögey ata (ögey ana), habelə qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla yaşı 30-dan az olan nikahda olmayan şəxslər;



VƏKİL AÇIQLADI

**13.** 6, 7 və 9-cu bəndlərdə qeyd olunan tələblər eyni zamanda uşağı övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) birgə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslərə münasibətdə də tətbiq edilir.

**14.** Aralarında nikah olmayan şəxslər birlikdə eyni uşağı övladlığa götürə bilməzlər.

Həmçinin övladlığa götürən şəxslərin sağlamlıq vəziyyəti də uşaqın normal ailədə böyüməsi üçün zəruridir. Övladlığagötürməyə imkan verməyən xəstəliklər aşağıdakılardır:

**1.** Dispanser müşahidəsinin I, II və V qruplarına aid olan şəxslərdə vərəm xəstəliyi

**2.** Bütün növ infeksion (yoluxucu) xəstəliklər

**3.** Lokalizasiyasından asılı olmayaraq III və IV dərəcəli bədxassəli yenitörəmələr

**4.** Dispanser müşahidəsi bitənədək psixi (ruhi) və davranış pozuntuları

**5.** Narkomaniya, toksikomaniya (dərman asılılığı) və alkoqolizm.

***Ziya Hikmətoğlu***

# Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan Mehdiyev Münasib Namaz oğlu dəfn edilib





33 il əvvəl Ağdərə uğrunda gedən döyüşlərdə itkin düşən şəhid Mehdiyev Münasib Namaz oğlunun nəşinin qalıqları Samux rayonuna, doğulduğu Qovlarsarı kəndinə gətirilib. Şəhidlə vida mərasimi keçirilib. Daha sonra şəhid Mehdiyev Münasib Namaz oğlunun nəşi Qovlarsarı kənd qəbristanlığında torpağa tapşırılıb.

Dəfn mərasimində Samux Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev, YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev şəhidimizin ailə üzvlərinə bir daha baş sağlığı verib. Prezident İlham Əliyevin rəhbərliyi ilə hərbçilərimizin göstərdiyi rəşadətdən danışıb. Qazanılan tarixi qələbə ilə şəhidlərimizin qanının yerdə qalmadığını vurğulayıb. Mərasimdə şəhidimizin tabutu üzərindəki Azərbaycanın Respublikasının üçrəngli bayrağı şəhidin ailəsinə təqdim edilib.

Qeyd edək ki, şəhid Mehdiyev Münasib Namaz oğlu 1973-cü il avqustun 23-də Samux rayonunun Qovlarsarı kəndində anadan olub. 1982-ci ildə Samux rayon Qovlarsarı kənd tam orta məktəbinin 1-ci sinifinə gedib. 1988-ci ildə Gəncə şəhər Peşə Məktəbinə daxil olub. 1992-ci ildə "N" saylı hərbi hissədə həqiqi hərbi xidmətə yollanıb.

Mehdiyev Münasib Namaz oğlu Birinci Qarabağ müharibəsində 19 iyul 1992-ci il tarixdə Ağdərə rayonunun Aterk kəndində gedən döyüşlərdə həlak olmuş və itkin düşmüşdür. 2025-ci ilin aprel ayında şəhidin meyiti DNT analizi edilərək aşkar edilib. Subay olub.

Allah rəhmət eləsin.







# Azərbaycan-Gürcüstan münasibətləri bütün sahələr üzrə inkişaf edir

***Tarixən Azərbaycan – Gürcüstan münasibətləri regionda seçilmişdir. Hər iki ölkənin xalqları bir-biri ilə əsasən mehriban qonşu və etibarlı dost kimi yaşamışlar. Dünyanın hər bir regionunda olduğu kimi, burada da müəyyən mərhələlərdə anlaşılmazlıq da olmuşdur. Ancaq əsas odur ki, ən çətin və riskli mərhələlərdə belə Azərbaycanla Gürcüstan dövlət, cəmiyyət və xalq olaraq əməkdaşlığa, dostluğa və qarşılıqlı yardıma üstünlük vermişlər.***



***İman ABDUYEV***
***Politoloq***

Bu davranış bütövlükdə Qafqazda digərlərinə bir nümunə olaraq qalmaqdadır. Azərbaycanın qonşu Gürcüstanla münasibətləri tarixən xüsusi əhəmiyyət kəsb edib. Bakı həmişə Tbilisini özünə strateji tərəfdaş, dost ölkə sayıb. Bu iki xalq arasında əsrlər boyu dostluq və qardaşlıq münasibətləri olub. Bu ənənə hazırda da uğurla davam edir. Azərbaycan–Gürcüstan münasibətlərində mehriban qonşuluq və dostluq xətti üstün olmuşdur. Müstəqillik mərhələsində bu münasibətlər xüsusi məzmun və strateji məqsəd almışdır.

Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidi ilə Azərbaycanda yenidən hakimiyyətə gələndən sonra Gürcüstanla əməkdaşlıq istiqamətinə ayrıca diqqət yetirdi və onun strateji əhəmiyyətini hər kəsə anlatdı. Onu vurğulayaq ki, iki ölkə arasında müstəqillik dövründə diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də yaradılmasına baxmayaraq, aktiv siyasi-diplomatik münasibətlər 1995-ci ildən başlanmışdır. Belə ki, həmin ilin fevral ayında Bakıda Gürcüstan səfirliyi və 1996-cı ilin mart ayında Tbilisidə (Heydər Əliyevin Gürcüstana ilk səfəri zamanı) Azərbaycan səfirliyi açılmışdır. Azərbaycanla Gürcüstan arasında münasibətlərin bu cür məzmun almasının təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Yəni müstəqillik mərhələsində də Azərbaycan dövləti Gürcüstana dost və əməkdaşlıq əlini uzatmışdır. Proseslər göstərdi ki, bu, sadəcə diplomatik jest deyildir, həm də Azərbaycanın ciddi surətdə reallaşdırdığı xarici siyasətin bir aspektidir. Konkret desək, Azərbaycan Respublikası davamlı surətdə Gürcüstanla əlaqələri bərabərhüquqluluq və mehriban qonşuluq şəraitində beynəlxalq hüquq normalarına uyğun münasibətləri inkişaf etdirmək kursunu seçmişdir. Və etibarlı surətdə bütün mərhələlərdə bu vədinə tam əməl etməkdədir.

Bu gün istər Gürcüstan, istərsə də Azərbaycan yeni iqtisadi-siyasi münasibətlər dövründə, müstəqillik şəraitində xeyli inkişaf ediblər. Bununla yanaşı, hər iki ölkə qarşısında dayanan çağırışlar da, problemlər də eyni olub – ərazi bütövlüyünün pozulması, aqressiv separatizm. Hələ ki, Cənubi Qafqazda sülh tam bərqərar olmadığından Bakı ilə Tbilisi bir-birinə dəstək baxımından daha sıx əlaqədədirlər. Eyni zamanda, hər iki tərəf bu qənaətdədir ki, artıq Cənubi Qafqazda sülhün bərqərar olmasının vaxtı çatıb. Bütün bunlar həm də regionun üçüncü ölkəsi, təcavüzkar Ermənistana ciddi bir mesajdır.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin aprelin 15-16-da Azərbaycana rəsmi səfər etmişdir. Onun sözlərinə görə, bu, M.Kavelaşvilinin Gürcüstan Prezidenti kimi ilk xarici səfəridir. M.Kavelaşvilinin ilk xarici səfərini sülhsevər, 30 il ərzində pozulmuş ərazi bütövlüyünü öz gücünə təmin edərək, nümunə göstərmiş Azərbaycana etməsi, dünyaya, ilk növbədə, Ermənistana sülh siqnalı olmalıdır. Yəni, vaxtdır, Cənubi Qafqaz sülh və əməkdaşlıq regionu olmalıdır!

Gürcüstan Prezidenti, bütövlükdə qonşu ölkənin hökuməti Azərbaycana xoş və səmimi jestlərini həmişə nümayiş etdirdiyi kimi, bir qədər əvvəl, Novruz bayramı günlərində bir daha ortaya qoydu. Həmin gün Borçalıda təşkil olunmuş Novruz bayramı şənliklərinə Gürcüstan Prezidenti Mixeil Kavelaşvili, Baş nazir İrakli Kobaxidze, parlament sədri Şalva Papuaşvili və digər rəsmi şəxslər də qatılmışdılar. Şənlik böyük mehribanlıq və qonaqpərvərlik şəraitində keçib, gürcü rəsmiləri ölkənin azərbaycanlı sakinlərini bayram münasibətilə təbrik edib, onlara qoşularaq şənləniblər. Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində baş tutan tədbirdə Azərbaycan və gürcü dillərində şeirlər səslənib, rəqs nömrələri nümayiş etdirilib. Bu da bir daha iki xalqın əsrlərə söykənən dostluğunun təsdiqidir.

Azərbaycan və Gürcüstan Cənubi Qafqazın sülh regionuna çevrilməsi istiqamətində də fəal işlər görməkdədirlər. Bu sahədə indiyədək bir sıra addımlar atılıb. Bir neçə il əvvəl Gürcüstan Azərbaycan və Ermənistan arasında vasitəçilik missiyasını həyata keçirməyə hazır olduğunu bəyan edib. Daha sonra Tbilisi Bakı və İrəvan arasında sülh müqaviləsinin Gürcüstanda imzalanması təşəbbüsü ilə çıxış edib. 2023-cü il oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Tbilisiyə səfəri zamanı bu ölkənin Baş naziri İrakli Qaribaşvili ilə görüşündə də bu məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Gürcüstanın Baş naziri bəyanatında bildirmişdi ki, Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır, dost ölkədir. Xalqlarımız arasında ənənəvi dostluq davam edir və cənab Prezident cənab İlham Əliyev bu işə çox böyük töhfələr verir.

# 44 uşaq himayədar ailələrə verilib



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən ötən dövrdə 44 uşaq himayədar ailəyə verilib. SİA xəbər verir ki, bu barədə ƏƏSMN məlumat yayıb.Bununla əlaqədar qanunvericiliyə uyğun olaraq Nazirliklə həmin uşaqları himayəyə götürən şəxslər arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilələr imzalanıb.“Himayədar ailə” qayğı modeli uşaqlara qayğının dünyada geniş yayılmış nümunələrindən biridir.***

Valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, valideynləri tərəfindən müəssisəyə qoyulmuş uşaqların himayədar ailələrə verilməsi onların dövlət nəzarəti altında ailə mühitində böyüməsi və inkişafına hədəflənib.Himayədar ailələrə verilən uşaqlardan 16-sı oğlan, 28-i qızdır.Həmçinin 23 nəfəri 6 yaşadək olan, 17 nəfəri 7-13 yaş arası, 4 nəfəri 14-18 yaş arası uşaqlardır.Himayədar ailələrə verilən 44 uşaqdan 23-ü hazırda Bakı şəhərində, 21-i rayonlardakı (Ağcabədidə 1, Biləsuvarda 1, Cəlilabadda 1, Gəncədə 1, Göyçayda 1, Göygöldə 3, Xaçmazda 2, Lənkəranda 4, Şamaxıda 1, Şəkidə 1, Şəmkirdə 4, Zaqatalada 1 ailə) ailələrdə yaşayırlar.

# Birinə bənzəməyə çalışarkən bir-birimizə oxşadıq

***20 aprel Dünya Birinə Bənzəmə günüdür. Qadınlardan danışmaq istəyirəm. Özünü bəyənməyib kiməsə oxşamağa çalışan qadınlardan. Birinə bənzəmək istəyərkən bir də baxdılar ki, bir-birinə bənzəyirlər. Nə üçün? Mən deyim, siz də dinləyin. Elə ki, burunların kiçildilməsi, dodaqların şişirdilməsi dəb halını aldı, eyni həkimə və kosmetoloqa müraciət edən qadınlar da bir-birinə bənzəməyə başladılar. Çünki bir həkimin, bir kosmetoloqun bacardığı iş onlarla qadının üzündə təzahür etdi.***

Burun əməliyyatını anlamaq olur haradasa. Bəzən elə burunlar olur ki, ya tibbi nöqteyi-nəzərdən, ya da görünüş baxımından əməliyyata ehtiyacı olur. Əslində bütün estetik əməliyyatlarla Allaha qarşı çıxırıq, bu, məlumdur. Lakin edirik də, bu da qarşısıalınmazdır. Belə olan halda sağlamlığa və ya gözəl görünməyə əngəl yaradan



burunların əməliyyat olunması başadüşüləndir.

Bəs dodaqların şişirdilməsi necə, vacibdirmi? Bu, nəyi dəyişir, nəyə xidmət edir? Bax bu suallara illərdir ki, cavab axtarıram, lakin hələ də tapa bilmirəm. Küçədə, mağazada, marketdə bir də baxırsan ki, neçə qadın varsa, hamısı bir-birinin bənzəridir. Dodaqlar, necə deyərlər, üç metr qabaqda, burunlar yuxarıda- ox kimi.

Belə baxırsan, baxırsan, deyirsən, İlahi, insan da özünü bu günə salarmı? Bu boyda dodaqların nə mənası var. Axı Allah-təala məsləhət bilib bunu qaydasında-qanununda verib də... Amma nə fayda? Bunu anlayan, düşünən varmı? Elə bu səbəbdən də şişmə dodaqlar dəbə düşüb və əksər qadın düşünmədən-daşınmadan qaçır kosmetoloq yanına ki, mənim dodağımı şişirt. Bu iş üçün həm də qadınlarımız heç də həmişə həkim-kosmetoloqlara deyil, adi bir gözəllik salonunda bu işlə məşğul olanlara müraciət edirlər ki, nəticə adamı dəhşətə gətirir. Bir də baxırsan ki, qarşıdan bir qadın gəlir, ağız-dodağını heç cür yığıb-yığışdıra bilmir. Vallah, adamın yazığı gəlir. Bəzi halda utandıqları, insanlardan qüsurlarını gizlətməyə çalışdıqları da gözdən yayınmır. Amma, çox təəssüf ki, iş işdən keçmişdir.

Bəli, heç bir təhsili olmayan, sadəcə oradan-buradan necə gəldi öyrənib özünü kosmetoloq adlandıranlar qadınlarımızın başına bu oyunları gətirirlər.

Tək dodaqlar deyil, elə burunlar da var ki, üç dəfə təkrar əməliyyat olunmasına baxmayaraq hələ də normal burundan xeyli uzaqdadır. Bu cür burunları daşıyan qadınlarla qarşılaşanda isə onun əziyyətinə və çəkdiyi xərcə heyfsilənib işinin öhdəsindən gələ bilməyən həkimləri ittiham etməkdən başqa çarə qalmır.

Tək dodaq, burunmu? Xeyir. İndi artıq qalıcı olaraq qaşların formaya salınması və kirpiklərin uzadılması, saçların istənilən uzunluğa çatdırılması da qadınlarımız arasında dəbə çevrilib. Bax elə bütün bunlara görə də tez-tez bir-birinə oxşar qadınlarla qarşılaşmaq olur. Burunlar, dodaqlar, qaşlar, kirpiklər, saçları eyni olan qadınlarla...

Lakin hər bir qadın üçün özünəməxsusluqdan gözəl nə ola bilər? Özünə məxsus burun, dodaq quruluşu, özünə məxsus saçlar, qaşlar, kirpiklər... Qadınlarımız əsrlərlə bütün burunlarla bir-birindən fərqli olmayıblarmı? Bir-birilərindən bu gözəllikləri ilə seçilməyibmi? Biz nə üçün müasirləşdikcə özümüzdən uzaqlaşırıq? Nə üçün Allahın verdiyi qaşları ləğv edib yerinə şahə qalxan qaş döydürürük? Nə üçün püstə ağzımızı qarpıza çeviririk? Nə üçün qıvrılıb yuxarı qalxan, gözlərimizə işığın düşməsini əngəlləyən kirpiklərlə gəzməli oluruq?

Görəsən müasirlik budurmu? Müasirlik deyəndə ifratmı başa düşülməlidir? Əsla. Məni bu silsilədən olan bütün yazılarımda geridə qalmış geridə qalmış hesab edənlər az deyil, bilirəm. Bilsinlər, ziyanı yoxdur. Lakin elə bilirəm fikirlərimlə razılaşanlar olar ki, müasirlik bu qədər ifrata xidmət etməməlidir. Bizlər bir-birimizə nə üçün oxşamalıyıq ki? Əksinə, özümüzə məxsusluğumuz ilə bir-birimizdən fəqlənməliyik. Məhz bu halda qadın gözəlliyi ortaya çıxır.

Gözəlliyimizi, həm də təbii gözəlliyimizi kosmetoloqların əllərində məhv etməyək, əziz qadınlar... Birinə, bir-birimizə deyil, özümüzə oxşayaq!

**Mətanət Məmmədova**

# “İnsanlar digər xərcləri düşünmür, amma gömrük ödənişlərinə tərəddüdlə yanaşırlar”

***Vətəndaşların gömrük ödənişlərindən yayınmasının qarşısını almaq üçün təbliğat və maarifləndirmə işləri genişləndirilməlidir. SİA xəbər verir ki, bunu Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırov “Rəqəmsal gömrük və media” mövzusunda keçirilən tədbirdə çıxışı zamanı bildirib.***



AÇIQLAMA

“Əslində, vətəndaşların idxal etdikləri mallara görə ödədikləri vəsait dolayı yolla özlərinə qayıdır. Bu ödənişləri dövlətə xidmət kimi dəyərləndirmək lazımdır. Hər bir vətəndaş gömrük ödənişlərinə məsuliyyətlə və həvəslə yanaşmalıdır”, - deyə Ş.Bağırov vurğulayıb.

DGK-nın sədri qeyd edib ki, bəzən insanlar digər şəxsi xərcləri barədə düşünmür, amma gömrük ödənişlərinə yanaşmada tərəddüd edirlər: “Bu səbəbdən maarifləndirmə və təbliğat işlərini daha da gücləndirmək vacibdir. Xaricdən məhsul gətirən vətəndaş anlamalıdır ki, etdiyi ödəniş ümumi rifaha [dövlət, xalq qarşısında] töhfədir. Bu prosesi istəklə həyata keçirmələri digərlərinə də nümunə olacaq. Cəmiyyətin bu məsələyə daha fəal cəlb olunması üzərində ciddi şəkildə düşünürük. Bu baxımdan media çox mühüm rol oynayır”.

Ş. Bağırov əlavə edib ki, bəzi hallarda kütləvi informasiya vasitələrində gömrük orqanlarının fəaliyyəti ilə bağlı tənqidi fikirlər səslənir: “Lakin bu fikirləri təhlil etdikdə görürük ki, əksər hallarda bu tənqidlər əsaslı deyil. Texniki məsələlərin və normativ qaydaların tam bilinməməsi səbəbindən narazılıqlar yarana bilər. Bu cür halların qarşısını almaq üçün media nümayəndələri ilə daha sıx əməkdaşlıq etməliyik”.

# Abituriyentlərin blok imtahanı həyəcanı: az bal yığsalar...

***Məlum olduğu kimi, ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı ərizələrin qəbulu iki mərhələdə olmaqla internet vasitəsilə aparılır. Ərizə qəbulunun birinci mərhələsi 2025-ci il fevralın 20-dən martın 5-dək həyata keçirilib. Həmin mərhələdə ali təhsil müəssisələrinə (o cümlədən V ixtisas qrupu üzrə) və tam (11 illik) orta təhsil bazasında kollecə qəbul olmaq istəyənlər qeydiyyatdan keçiblər.***



I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyən abituriyentlər 2025-ci il aprelin 17-dən 1 may saat 23:59-dək şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (https://www.e-gov.az/az/services/read/3148/2) daxil olaraq imtahan vermək istədikləri ixtisas qrupunu seçib qeydiyyatdan keçməlidirlər.

Bu il tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə buraxılış imtahanı vermiş, lakin 20 fevral - 5 mart tarixlərində aparılan ərizə qəbulunda iştirak etməyən cari ilin məzunlarının müraciətləri nəzərə alınaraq onların da I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının ikinci mərhələsində iştirak etmək üçün qeydiyyatdan keçməsinə imkan yaradılıb. Müsabiqədə iştirak ödənişlidir. Ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı DİM-in göstərdiyi ödənişli xidmətlər haqqında məlumat dim.gov.az-dan əldə edilə bilər.

"Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.2-ci bəndinə əsasən, ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında (imtahanın ikinci mərhələsinin yalnız bir cəhdində) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olur.

"Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.3-1.7-ci bəndlərinə əsasən aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında (bütün mərhələ və cəhdlər üzrə) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

Digər abituriyentlər isə ərizəni təsdiq etmək (etdirmək) üçün tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə edirlər və həmin məbləğ ərizə təsdiq olunduqdan sonra onların şəxsi kabinetlərindəki hesablarından çıxılır. Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqə şərtini ödəmiş, lakin 20 fevral -5 mart tarixlərində keçirilən ərizə qəbulu zamanı "Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak etmək istəyirəm" bəndini seçməyən abituriyentlərə yayda kolleclərin ixtisas seçimində iştirak etməyə icazə veriləcək.

Ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsinin birinci cəhdi II və III ixtisas qrupları üzrə mayın 25-də, I və IV qruplar üzrə isə iyunun 1-də keçiriləcək. III ixtisas qrupu üzrə həm DT, həm də TC altqrupunu seçən abituriyentlər üçün coğrafiya fənni üzrə əlavə imtahan iyunun 22-də keçiriləcək. I ixtisas qrupu üzrə həm Rİ, həm də RK altqrupu üzrə imtahan vermək istəyən abituriyentlər ikinci mərhələnin birinci cəhdində bir, ikinci cəhdində isə digər altqrupu seçə bilərlər. Abituriyentlər istəklərindən asılı olaraq hər iki cəhddə eyni altqrup üzrə də iştirak edə bilərlər.

I,II,III və IV ixtisas qrupları üzrə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyən abituriyentlərin qeydiyyatına dəstək üçün hər il olduğu kimi bu il də Abituriyent Məsləhət Mərkəzləri fəaliyyət göstərir. Abituriyentlər mayın 1-dək qeydiyyatdan keçmək üçün ödənişsiz fəaliyyət göstərən "Məsləhət mərkəzləri"nə də müraciət edə bilərlər.

Məsləhət mərkəzləri Bakı şəhəri üzrə isə Qərbi Kaspi, Azərbaycan, Bakı Biznes, Odlar Yurdu, Texniki Universitet, Memarlıq və İnşaat Universitetində, Sumqayıt şəhəri üzrə Sumqayıt Dövlət Universitetində, Gəncə şəhəri üzrə Azərbaycan Dövlət Aqrar Universitetində və Dövlət İmtahan Mərkəzinin Naxçıvan, Göyçay, Şəki, Xaçmaz, Lənkəran, Gəncə, Şirvan, Bərdə, Şəmkir regional bölmələrində həftənin 5 günü (şənbə və bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək fəaliyyət göstərirlər.

Təhsil eksperti Ramin Nurəliyev deyir ki, buraxılış imtahanından zəif bal toplayanlar üçün qəbul mübarizəsi bitməyib, ali və orta təhsil almaq üçün bir çox yollar var və bu imkanlardan bütün zəif bal toplayanlar istifadə edə bilər: "Blok imtahanına ciddi şəkildə hazırlaşmaq, kolleclərə müraciət etmək, peşə təhsili müəssisələrinə müraciət etmək, xarici universitetlərə müraciət etmək kimi yollar da var. Bu gün ali və orta ixtisas təhsili almaq qədər asan heç nə yoxdur. Buna görə də övladlarınızı zəif nəticə göstərdiyi üçün təzyiq etməyin. Sonra hər hansı bir bədbəxt hadisənin səbəbkarı olduğumuz üçün üzülməyək. Hər şey övladlarımıza fəda olsun."

Təhsil eksperti Kamran Əsədov sosial şəbəkə hesabında yeni imtahan modelinə keçəndən sonra tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarında maksimal bal – "300 bal" toplayan abituriyentlərin illərə görə say statistikasının təhlilini aparıb: Qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə imtahan fənləri və toplanıla biləcək maksimal ballar:

- **Azərbaycan (rus) dili – 100 bal**
- **Xarici dil – 100 bal**
- **Riyaziyyat – 100 bal**

Bu mərhələ üzrə toplanıla bilən maksimal ümumi bal: 300 bal

Aşağıdakı cədvəl 2019–2025-ci illər arasında buraxılış imtahanında (yeni qəbul imtahanının birinci mərhələsində) maksimum 300 bal toplayan abituriyentlərin illik dinamikasını göstərir. Statistik məlumatlara əsaslanaraq aşağıdakı nəticələr çıxır:

1. 2019–2022 dövrü – Sabit və aşağı göstəricilər:

Bu illər arasında maksimum bal toplayanların sayı cəmi 13 nəfər olub. Hər il orta hesabla 2-5 nəfər 300 bal toplamağa nail olub. Bu dövr əsasən pandemiya və dəyişən test mexanizmləri ilə xarakterizə olunur.

2. 2023-cü il – Sıfır nəticə:

Bu il ən diqqətçəkən məqamdır. Heç bir abituriyent 300 bal toplamayıb. Bu fakt ya sualların çətinliyinin, ya da qiymətləndirmənin sərtləşməsinin göstəricisidir. Eyni zamanda, bu nəticə sistemdə böhran və ya zəif hazırlıq imkanlarının işarəsi ola bilər.

3. 2024 və 2025-ci illərdə kəskin artım:

Bu iki ildə birlikdə 98 nəfər 300 bal toplayıb (2024-cü ildə 55 nəfər, 2025-ci ildə 43 nəfər). Bu, əvvəlki illərlə müqayisədə radikal artımdır və aşağıdakı səbəblərdən qaynaqlana bilər:

- **Testlərin daha sadələşdirilməsi və ya süni bal artımı**
- **Tədris proqramına uyğunluğun yüksəlməsi**
- **İmtahanların qiymətləndirmə meyarlarında yumşalma**
- **Repetitorluğun DİM imtahanlarını ram etməsi və yaxud test strategiyalarının daha effektiv mənimsənilməsi**

Bu qədər kəskin artım imtahanların məzmunu və obyektivliyi ilə bağlı suallar doğura bilər. Əgər 2023-cü ildə sıfır, 2024-cü ildə 55 nəfər maksimum bal toplayırsa bu, qiymətləndirmə və test çərçivəsində süni təsirin bariz nəticəsidir.

Tövsiyələr:

- **Qiymətləndirmə qurumu bu dəyişikliklərin səbəbini ictimaiyyətə izah etməlidir.**
- **Bu kəskin fərq imtahanların keyfiyyəti və nəticələrin etibarlılığı ilə bağlı etimadı zədələyə bilər.**
- **Statistik dinamika davamlı monitorinq tələb edir və xüsusilə 2026-cı ildə göstəricilər sabit qalacaqmı, yoxsa dəyişəcək – bu suallar cavab gözləyir."**

***Lalə Mehralı***

# Dil xalqın böyük sərvətidir

***Hər bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşı olan dili kimliyini təsdiq edir. Bizim ana dilimiz vüqarımızdır, tariximiz, keçmişimiş, bu günümüz və gələcəyimizdir. Bu günə qədər tarixi reallıqlar deməyə əsas verir ki, çox ziddiyyətli yollar keçmiş Azərbaycan dili öz zənginliyini və saflığını qoruyub-saxlamışdır.***




## *Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi qəbul edildi*

Milli-mənəvi dəyərlərimizin qorunmasında və inkişafında ana dilimizin rolu böyükdür. Dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə onunla eyni taleyi yaşayıb müasir dövrə gəlib çatan ən böyük mənəvi sərvətlərimizdəndir.

Belə ki, Azərbaycan dili ərəb istilası dövründə iki əsr əsarət altında olmuş və bu baxımdan da, dilimizə ərəb-fars mənşəli sözlər daxil olmuşdur. Ərəb əlifbası dəyişdirildikdən sonra latın qrafikasına keçsək də, bu, uzun sürməyən bir proses olmuşdur. Belə ki, sovet imperiyasının Azərbaycanda hökmranlığı, sözsüz ki, öz təsirini göstərməyə bilməzdi. Rus şovinizminin təsiri nəticəsində, əlifbamızın dəyişməsi, kiril əlifbasına keçid, ana dilimizin zəifləməsinə gətirib çıxardı, saflığına və təmizliyinə mənəvi təsir göstərdi. Belə ki, ərəb-fars mənşəli sözlərlə zəngin olan ana dilimiz rus mənşəli sözlərlə bir qədər zəifləməyə başladı. Onu da, qeyd edək ki, bu proseslər dilimizə nə qədər təsir etsə də, digər tərəfdən, Azərbaycan ziyalılarının dilin saflığı və təmizliyi uğrunda mübarizəsi, ana dilimizin qorunmasına yönəldilmişdir. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində dil uğrunda mübarizə daha da sürətləndi. Dilin təmizliyi istiqamətində çox ciddi addımlar atılmağa başlandı. Tədqiqat işlərinin nəticəsi olaraq, dilçi alimlərin yaratdığı əsərlər Azərbaycan dilinin leksikologiyasına, qramatikasının və onun semantik xüsusiyyətlərinin öyrənilməsinə yönəldilmişdir. Müxtəlif lüğətlərin yaranması, ana dilini öyrənən əsərlərin meydana çıxması dilçi alimlərin və ziyalıların gərgin əməyi nəticəsində ortaya qoyuldu.

### "AZƏRBAYCAN SSR-NİN DÖVLƏT DİLİ AZƏRBAYCAN DİLİDİR"

Dilimizin keçdiyi çətin dövrlərdən biri də SSRİ dövrü idi. Hələ sovet dövründə ana dilimizin qorunması və inkişaf etdirilməsi, Azərbaycan dilinin dövlət dili statusunun təmin edilməsi ilə bağlı Ümummilli Lider Heydər Əliyev tarixi faktlar gerçəkləşdirmişdi. Məhz Ulu Öndərin qayğı və diqqəti nəticəsində o dövrdə Azərbaycan dili ölkəmizdə dövlət dili kimi rəsmiləşmişdi.

Əlbəttə ki, hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən, onu tanıdan ana dilidir. Dil hər bir xalqın varlığının ən əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amildir. Ana dili dövlət rəmzlərimiz olan bayraq, gerb, himn kimi müqəddəsdir.

Hələ ötən əsrin 70-ci illərində dövlət dilinin qorunması uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider Heydər Əliyev bütün ziyalıları, vətəndşlarımızı səfərbər edərək, ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb etmişdir. 1969-cu ildən başlayaraq, Azərbaycan dili sahəsində aparılan islahatlar öz nəticəsini verməyə başladı. Ümummilli Lider Heydər Əliyev ana dilinin saflığının qorunması üçün mühüm addımlar atdı. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini və dövlət dilini mükəmməl bilməlidir", - deyən Ulu Öndər Heydər Əliyev dil uğrunda mübarizədə qətiyyət və prinsipial mövqedən çıxış edirdi. 1978-ci ildə SSRİ rəhbərliyi milli dəyərlərə, dilə birmənalı yanaşdığı halda, Ümummilli Liderin qətiyyəti və məntiqi nəticəsində, Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edildi. Bu, dilimizə qarşı olan tələbkarlıq idi. Onu da bildirək ki, həmin illərdə Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb.

1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir. " Ulu Öndər Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir.

### ANA DİLİMİZƏ QARŞI HAQSIZLIQ ARADAN QALDIRILDI

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də Referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə, bilavasitə bağlıdır. İmperiya dövründə ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu və cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə, müvafiq qanun qəbul olunması ilə nəticələndi. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günü kimi qeyd olunması ilə bağlı 9 avqust 2001-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Fərman imzalandı. Ümummilli Lider Heydər Əliyevin imzaladığı sərəncamlar əsasında Azərbaycan dilinin təkmilləşməsinə, onun inkişafına yol açıldı. Daha sonra Ulu Öndər Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Sərəncamı da milli-mənəvi dəyərlərin qorunub-saxlanması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasətin əsasını təşkil edən amillərdəndir.

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı millimədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub.

### "ƏDƏBİ DİLİN TƏRƏQQİSİ OLMADAN MƏNƏVİ MƏDƏNİYYƏTİN TƏRƏQQİSİ MÜMKÜN DEYİLDİR"

Bu sahəyə aid digər sərəncamlar ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü dil siyasəti Azərbaycan dilinin inkişafına öz töhfələrini verir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Hər bir sahədə çalışan insan dilin qayda-qanunlarına əməl etməyə vətəndaş olaraq borcludur. Azərbaycan milli mətbuatında dil məsələsi aktual olan mövzulardandır. Dilin qorunması, işlənməsi, yad ünsürlərdən mühafizəsi, danışıq dilində sözlərin tələffüzü və digər məsələlər vacib hesab olunur. Söz fikrin gerçəkliyinin ifadəçisidir. Mətbuatda informasiya dil və söz vasitəsilə çatdırılır. Jurnalist peşəkarlığının əsas elementlərindən biri dildən istifadə ilə bağlıdır. Fikrin aydın və lakonik şəkildə çatdırılması, yeri gələndə, nitqdə hiss-həyəcan və emosiyanın duyulması, bəzən kəskinliyin, sərtliyin görüməsi - bütün bunlar jurnalist üçün vacib hesab edilən amillərdir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. ...Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır".

Dil hər bir millətin varlığını ifadə edən, maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən vasitədir. Dil ünsiyyət vasitəsidir. Dil milli şüurun və milli kimliyimizin formalaşmasında mühm amillərdən biridir. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır. Xalqımızın ən zəngin millimədəni irsi onun adət-ənənələri, mədəniyyəti, tarixi və dilidir. Bu əsasda formalaşdırılan milli-mənəvi dəyərlər sistemi zaman-zaman qorunub-saxlanılmış və bu günümüzə qədər gəlib çatmışdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Avropa qorxu və təlaş içindədir

***Rusiya-Ukrayna müharibəsinin getdikcə daha amansız və dağıdıcı xarakter alması dünyanın əksər ölkələrinin iqtisadiyyatına, ticarət əlaqələrinə ciddi təsir etməklə yanaşı, bəzi ölkələr müharibənin onların qapısını döyəcəyi qorxusunu yaşamaqdadırlar. Hətta Niderland, İsveçrə, Almaniya, Norveç, Polşa kimi dövlətlər Rusiyanın onların şəhərlərini məhv edə biləcəyi qorxusunu önləmək üçün müdafiə tədbirlərini artırıblar.***






Ancaq bu kimi müdafiə tədbirlərinin müharibənin Avropanın içərilərinə qədər uzanmasının qarşısını ala bilməyəcəyi görünür. Çünki Rusiya tərəfi Avropa ölkələrini açıq təhdidlər edir, bəzi hallarda xəbərdarlıq xarakterli sərhəd pozuculuğu həyata keçirir. ABŞ prezidenti Donald Trampın Ukraynada müharibəni dayandıracağını açıqlasa da, hələ ortada heç bir nəticə yoxdur. Hətta Rusiya-Ukrayna müharibəsinə son qoyulması üçün Səudiyyə Ərəbistanında Rusiya-ABŞ nümayəndə heyətləri arasında görüş də keçirilib. Görüşdə ABŞ-nin dövlət katibi Marko Rubio, Donald Trampın milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts və prezidentin Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Uitkoff, Rusiyanı isə xarici işlər naziri Sergey Lavrov və Vladimir Putinin köməkçisi Yuri Uşakov təmsil olunublar. Danışıqlar 15 dəqiqəlik fasilə və lanç fasiləsi daxil olmaqla 5 saata yaxın davam edib. Danışıqlardan sonra Rusiya nümayəndə heyətinin üzvü, RF prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov jurnalistlərə açıqlamasında bildirib ki, ABŞ tərəfi ilə dialoq pis keçməyib. Ukrayna nümayəndə heyəti ABŞ və Rusiya nümayəndələrinin görüşündən sonra əlavə məsləhətləşmələr aparmaq üçün ABŞ rəsmiləri ilə görüşüblər. Bu barədə Ukrayna Prezidenti ofisinin müşaviri Sergey Leşşenko bildirib. Görüşün iki mövzunu əhatə etdiyini bildirən Ukrayna rəsmisi onu da qeyd edib ki, birincisi infrastruktur və gəmiçiliyin təhlükəsizliyidir: “Söhbət qarşılıqlı atəşkəsdən gedirdi. Biz rusların dənizdəki obyektlərinə hücum etmirik. Onlar bizim obyektlərimizə və limanlarımıza - Xerson, Nikolayev və böyük Odessa limanlarına hücum edirlər, böyük dağıntılar törədirlər”.

S.Leşşenko bildirib ki, danışıqlar kifayət qədər uzun çəkə bilər, lakin görüşlərin müntəzəm olacağı vəd edilir: “Bu, texniki danışıqlardır. Adətən, danışıqlar bir gün deyil, bəzən aylar çəkir, bəzi danışıqlar isə, məsələn, Yaxın Şərq nizamlanması, illərlə davam edir. Sadəcə, başa düşməliyik ki, görüşlər kifayət qədər müntəzəm olacaq və hər görüş ictimai bəyanatlarla başa çatmır”.

Görüşdən sonra D.Tramp Rusiya prezidenti V.Putinlə də telefon danışığı aparıb. Telefon danışığını məhsuldar adlandıran Tramp Putinlə uzun və məhsuldar bir telefon danışığı olduğunu və ortaq sahələrlə bağlı bir çox mövzunu müzakirə etdiklərini bildirib. Tramp, ABŞ və Rusiya arasında birgə çalışmanın hər iki ölkəyə fayda verəcəyini bildirib: “Xüsusilə, Rusiya-Ukrayna müharibəsində milyonlarla ölümü dayandırmaq istəyirik, bir-birimizi ziyarət etmək də daxil olmaqla, çox yaxından işləmək barədə razılaşdıq. Nümayəndələrimizin müharibənin dayandırılması üçün dərhal danışıqlara başlaması ilə bağlı razılığa gəldik”.

## Tramp həm hədələyir, həm də xahişlər edir

Tramp Putindən sonra Ukrayna prezidenti Zelenski ilə də telefon danışığı aparıb. Bununla bağlı bildirib ki, Zelenski də sülh istəyir. ABŞ Dövlət Departamenti yazılı açıqlamasında Trampla Putin arasına keçirilən telefon danışığının sülhün əldə edilməsinə doğru atılan müsbət addım adlandırıb: ”Biz Putini rəqib, bəzən də düşmən kimi görürük, lakin Tramp liderlərlə yaxşı münasibətlər qurmaq və onlarla dil tapmaq istəyir”.

ABŞ prezidenti Donald Tramp Ağ Evdə aprelin 17-də İtaliyanın baş naziri Giorgia Meloni ilə görüşündən sonra keçirilən brifinqdə Rusiya-Ukrayna müharibəsinin dayandırılması və sülhün əldə olunması ilə bağlı nikbin fikirlər səsləndirib. Qeyd edib ki, Rusiya ABŞ-a Ukraynada “atəşkəs” təklifinə “bu həftə” cavab verəcək.. İtaliyanın baş naziri Trampdan Rusiyanın atəşkəsə hazır olub-olmamasına hansı məqamda qərar verəcəyini və lazım gələrsə, ona qarşı sanksiyaları sərtləşdirib-kəsmə edəcəyini soruşub. Cavabında ABŞ prezidenti ”Görəcəyik nə olacaq. Biz Rusiyadan bu həftə, çox yaxında cavab alacağıq və görəcəyik”, - deyə bildirib. O, həmçinin “ölümün və qətlin dayandırılmasını” istədiyini bir daha vurğulayıb.

Bir qədər əvvəl ABŞ dövlət katibi Marko Rubio qeyd etmişdir ki, Birləşmiş Ştatlar Rusiyanın sülhə sadiq olub-olmadığını tezliklə öyrənəcək. Bununla belə Tramp administrasiyasının yüksək rütbəli rəsmiləri son günlər etiraf etməyə başlayıblar ki, Birləşmiş Ştatlar yaxın bir neçə ay ərzində Ukrayna ilə bağlı sülh razılaşmasına nail ola bilməyəcək.

## Rusiya-Ukrayna müharibəsinin miqyası genişlən bilər

ABŞ rəsmi dairələrinin, xüsusilə də prezident D.Trampın Rusiya-Ukrayna müharibəsini dayandıracağı ilə bağlı ümidverici fikirlər səsləndirsə də, hələ ki, nəticə yoxdur. Bu isə haqlı olaraq Avropa ölkələrində ciddi qorxu və narahatlıq yaradır. Vəziyyətdən məmnun görünən Ukrayna tərəfi haqlı olaraq Rusiyanı müharibəni uzatmaq da ittiham etməklə yanaşı ABŞ-a qarşı da tənqidi ifadələr səsləndirib. V.Zelenski açıq şəkildə ABŞ rəsmilərinin diqqətinə çatdırır ki, Rusiya heç bir halda sülh çağırışlarına əməl etməyəcək. Bu baxımdan da Vladimir Zelenski ABŞ-ın atəşkəsdən imtina etməsinə cavab olaraq Rusiyaya qarşı sanksiyaları sərtləşdirməsini gözlədiyini bildirib. Sumi şəhərində dinc sakinlərin Rusiya tərəfindən ballistik raketlərlə atəşə tutulmasının ardıca aprelin 18-də səhər saatlarında Rusiya hərbi qüvvələrinin Xarkovda kasetli bombalarla dinc əhalinin hədəf seçilməsi Zelenskinin haqlı olduğuna əsaslar yaradır. Həmin gün Rusiya ballistik raketlər Xarkovu vurması nəticəsində bir nəfər ölüb, 70-dən çox dinc sakin isə yaralanıb. Bu barədə OVA rəhbəri Oleq Sinegubov özünün sosial şəbəkə hesabında yazıb: ”Düşmən raketi Xarkovun sıx məskunlaşdığı əraziyə düşüb. Çoxmərtəbəli binaya zərbə endirilib. Dağıntılar altında insanlar ola bilər”.

Məlumatlar dəqiqləşdikdən sonra Oleq Sinegubov ilkin informasiyanı açıqlayıb: “İlkin məlumata görə, raket zərbəsi nəticəsində Osnovyanski rayonunda yaşayış binaları vurulub. Xarkova zərbələr kassetalı ballistik raketlərlə endirilib. Məhz buna görə də zərər çəkmiş ərazilər çox böyükdür”.

Sinegubov bildirib ki, ölənlər arasında iki uşaq var: biri 4, digəri 3 yaşından kiçik. İki uşaq olmaqla 13 nəfər xəstəxanaya yerləşdirilib. 4 nəfərin vəziyyəti ağırdır.

Xarkov şəhər prokurorluğu insan ölümü ilə nəticələnən hərbi cinayətin törədilməsi (Ukrayna Cinayət Məcəlləsinin 438-ci maddəsinin 2-ci hissəsi) ilə bağlı ibtidai istintaqa başlayıb. Şəhər prokurorluğun yaydığı məlumatda bildirilir ki, rus işğalçıları raketlərin şəhərə mümkün qədər çox ziyan vurması üçün havada partladılıb: “Artıq müəyyən edilib ki, raket havada mümkün qədər çox mülki hədəfə zərər vurmaq məqsədi ilə partladılıb. Zərbələr yaşayış massivində çoxmənzilli binalar arasında qeydə alınıb. Digər raket mülki müəssisəyə dəyib, yanğına səbəb olub” Partlayış nəticəsində mənzilində olan 79 yaşlı kişi həlak olub. Qurbanlar arasında 3, 4, 14 və 16 yaşlı dörd qız, həmçinin 17 yaşlı oğlan da var.

## Tramp Zelenskini başa düşməyə başlayır

Hadisələrin Trampın gözləmədiyi ssenari üzrə davam etməsi ABŞ-ı çıxılmaz duruma salıb. Hətta Ukrayna mətbuatının ölkə rəsmilərinə istinadən yaydığı məlumatlara görə, ABŞ prezidenti D.Tramp Ukrayna prezidenti V.Zelenskinin Rusiyaya qarşı ittihamlarına haqq qazandırıb. Hətta ABŞ prezidenti Donald Trampın Rusiyanın Ukraynaya genişmiqyaslı müdaxiləsində Vladimir Zelenskinin məsuliyyət daşıdığı barədə sözlərindən imtina etdiyi qeyd olunur. Bu barədə onun Ağ Evdə İtaliyanın baş naziri Giorgia Meloni ilə görüşü zamanı bildirilib. Tramp bildirib ki, müharibənin baş verməsinə görə, Zelenski məsuliyyət daşımır, amma bu müharibənin başlaması məni həyəcanlandırmır. Bunu onunla izah edib ki, o, prezident olsaydı, Ukraynada müharibə heç vaxt başlamazdı və bu, onun birinci prezidentliyi dövründə belə olub. Ona görə də mən Zelenskidən razı deyiləm və bu işdə əli olan heç kimdən razı deyiləm. Tramp onu da qeyd edib ki, o, Vladimir Putini dayandırmağa çalışır, çünki bildiyiniz kimi, Rusiya daha böyükdür, daha böyük ordusu var və əgər sən ağıllısansa, müharibələrə qarışmazsan: “Siz o oturacaqda oturan oğlanı, Baydeni nə baş verdiyini bilmədiyi üçün günahlandıra bilərsiniz. Amma mən sizə zəmanət verə bilərəm - və hamı razıdır - əgər mən prezident olsaydım, bu müharibə heç vaxt baş verməzdir”.

Trampın son fikirləri düşündürücü olsa da, şübhəli məqamlar da yaratmağa və fikirlər yürütməyə imkanlar verir. Çünki Rusiya-Ukrayna müharibəsinin birinci mərhələsi elə D.Trampın birinci prezidentliyi dövründə qoyulub. Hansı ki, artıq o dövrdə Krım Rusiya tərəfindən işğal olunmuşdur. Trampın komandası heç şübhəsiz ki, Rusiyanın Ukrayna ərazilərinə hücum edəcəyini planlaşdırdığını bilirdi və bunu kəşfiyyat məlumatları ilə də aydınlaşdırmışdır. Ancaq heç bir qabaqlayıcı tədbirlər görə bilmədi və ya görmək gücünə malik olmadı. Hazırda Trampın nə deməsindən və söyləməsindən asılı olmayaraq Rusiya-Ukrayna müharibəsi ağır və amansız forması ilə davam edir və bu müharibəni dayandırmağa heç kimin gücü çatmır. Ən narahat doğuran hal isə ondan ibarətdir ki, müharibə Avropa ölkələrini cənginə almaq riski qarşısındadır. Sadəcə, bir qığılcım kifayətdir ki, Avropa paytaxtları alova bürünsün və bu alovun içində yüz minlərlə insan yanaraq külə dönsün. Təbii ki, hər hansı bəşər övladı ikinci dünya müharibəsinin təkrarı ola biləcək dəhşətli savaşın baş verməsini arzu etməz. Lakin reallıq deyilən bir anlayış da var: Nə Rusiya, nə də Ukrayna güzəştə getmək istəmirlər. İkincinin mövqeyində israrlı olması anlaşılandır. Nədən ki, Zelenski hakimiyyəti torpaqlarını güzəştə getməklə xalqının tarixində satqın və xəyanətkar hakimiyyət olaraq qalmaq istəmir. Putin isə ilhaq etdiyi Ukrayna torpaqlarından imtina etmək istəmir. Birincisi ona görə ki, dünyada özü haqqında formalaşan imici var. İkincisi, referendum yolu ilə, Ukrayna ərazilərini torpaqlarına qatıb. Üçüncüsü isə, bir milyona yaxın əsgər və zabitini qara torpağın altına gömülməklə, torpağın üst qatını zəbt etməyə nail olub. Ona görə də, müharibənin dayandırması mümkünsüz görünür. Əksinə, müharibənin miqyasının genişlənərək Avropa ərazilərinə keçməsi gözlənilir. Hansı ki, bu hal da dünya dəhşətli fəlakətlə üzləşməli olacaq. Hətta nüvə silahının işə salınması və dünyanın sonunun gətirilməsi gözlənilir.

***İLHAM ƏLİYEV***

# 119 il əvvəl bizi deyib gəlmişdi...

***“Molla Nəsrəddin” 119 il bundan əvvəl bizi – Azərbaycan xalqını, müsəlman qardaşlarını deyib gəlmişdi. Böyük demokrat yazıçı və görkəmli ictimai xadim Cəlil Məmmədquluzadənin ideyalarından, xalqını, millətini necə görmək istəyindən, dövrün ən müasir inqilabi məsələlərindən danışmağa, din pərdəsi altında min bir oyundan çıxıb milləti cəhalətə sürükləyən “ruhanilərin” iç üzünü açmağa gəlmişdi.***

### “Dəli” də oldu, “Lağlağı” da...

Gəldi və ana dilimizin qayğıkeşi oldu. Cəlil Məmmədquluzadə ömrünün sonunadək doğma dil uğrunda mübarizə apardı. Millət sevdasından “Dəli” olub, “bəlkə millətimə bu cür təsir edə bilərəm”, – dedi. Bunun yetərli olmadığını görəndə düşüncələrindəkini “Lağlağı”lıqla anlatmağa çalışdı. “Yox, bundan da fayda olmadı, bunlarla yenə də milləti oyada bilmədim”, – deyə fikirləşərkən “Molla Nəsrəddin” oldu. Vətənini el-el, oba-oba səyahətə çıxıb hər təbəqə ilə “öz dili” ilə danışmağa başladı, bəlkə oyanalar, bəlkə dəyişələr, – deyə.







Molla Nəsrəddin, ağsaqqal sözü dinlənilən olar, – deyib səni yuxuya getmiş bir xeyli müsəlmanı oyatmaqda ona kömək etməyə çağırmışdı böyük Cəlil Məmmədquluzadə. Bizə Mirzə Cəlildən danış, özündən söhbət aç, necə gəldin, səni necə qarşıladılar, necə yola saldılar, bundan söhbət et, biz də maraqla dinləyək...

– Cəlil Məmmədquluzadə “bu gün” idi. Milləti isə “dünən”də qalmışdı. Böyük canyanğısı ilə onları səsləyirdi: dünənlərdən bu günlərə səsləyirdi. Onu çox gözəl anlayırdım, ona görə də sözünü yerə salmağa haqqım yox idi. Gəldim, 1906-cı ilin 20 aprelində Mirzə Cəlilə köməyə gəldim və onun redaktorluğu ilə iyirmi beş il ərzində fəaliyyətimizi Tiflisdə, Təbrizdə və Bakıda böyük uğurla davam etdirdik. Gəldiyim gün üz tutdum millətə: “Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükamalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər.Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər “xa-xa!..” edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəkləriniz ilə üz-gözünüzü silib, “lənət şeytana!” dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxınız camalınıza.Sözümü tamam etdim, ancaq bir üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən siz ilə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir, amma hərdənbir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi və qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırı biçarə ananız sizə deyirdi: “Bala, ağlama, xortdan gələr, səni aparar” və siz dəxi canınızın qorxusundan səsinizi kəsib ağlamaqdan sakit olurdunuz.

Hərdənbir ana dilini danışmaq ilə keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?!”

### “Molla Nəsrəddin”in əsas qayəsi-ana dili

“Molla Nəsrəddin” fəaliyyətinə ana dilini qorumaqla başlamışdı. Çünki milləti yuxudan oyatmaq üçün lazım olanların ən ümdəsi dil idi. O, “Dil” ucbatından “Anama de ki, Fatmanın oğlu oldu”nu “Fatmanın oğlu öldü” kimi oxuyub az qala bir ananın ürəyini partladan Molla Cəfəri ittiham etmədi, dilimizi bəyənməyib başqa dildə danışan “Bizim”obrazovannı”lar”ı qofta (küftə) atəşinə tutmadı, “Meymunlar” kimi bir-birini yamsılayıb özgə dildə danışın, Fatmanı “Fatya”, Həsəni “Qasanka” Münəvvəri “Varya” çağıranlara qarşı üsyankar olmadı? “Əlifba” dan söhbət açıb millətin yarısının ərəb, fars, bir yarısının da rus dilində danışmasını səhifələrinə çıxarıb “Molla Nəsrəddin”in münasibətini bildirmədi? Öz dilində danışmayanları qınamaq necə olar ki? Bax, “Molla Nəsrəddin” belə yazmışdı: “... Allah atana rəhmət eləsin, bəs ta hanı türk dili? Qardaş, zarafat deyil ki, dilimizdən iyrənirik, vəssalam!Uca papaqlılarımız bir-birinə kağız yazanda yazır: “və nigarani nədarim səvayi əz duri və mofariqəti şoma”.




Alçaq papaqlılarımız da bircə il qorodskoy şkolada uçit eləyəndən sonra küçədə bir iznakomini vstret eləyəndə o saat şapqasını çıxarıb deyir:

– İzdrasti, bacalusqa”.

### Vətəndaşlıq qayəsi

Cəlil Məmmədquluzadənin “Azərbaycan” məqaləsi onun vətəndaşlıq qayəsi idi: “ Bəzi vaxt otururam və papağımı qarşıma qoyub fikrə gedirəm, özümdən soruşuram ki:

– Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

– Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.

– Dilim nə dilidir?

– Azərbaycan dilidir.

– Yəni Vətənim haradır?

– Azərbaycan vilayətidir.

– Haradır Azərbaycan?

– Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxilindədir

Böyük mirzəcəlilşünas, akademik İsa Həbibbəyli özünün “Cəlil Məmmədquluzadə – Milli İstiqlal ədəbiyyatının sərkərdəsi” adlı məqaləsində yazır: “1917-ci ildə yazılmış “Azərbaycan” məqaləsində Mirzə Cəlil vaxtilə Şah İsmayıl Xətainin qılıncı ilə çəkdiyi Azərbaycan xəritəsini böyük məharətlə qələmi ilə cızmışdır. “Azərbaycan” məqaləsi Cəlil Məmmədquluzadənin Azərbaycançılıq konsepsiyasının bəyannaməsidir: Cəlil Məmmədquluzadə Azərbaycan xalqı üçün Vətən, millət və ana dilindən başqa nicat yolu olmadığını var-gücü ilə car çəkmişdir. Vətən, millət və dil məsələləri Cəlil Məmmədquluzadə yaradıcılığının əsas sütunlarıdır”.

### “Molla Nəsrəddin” nə deyirdi?..

Cəlil Məmmədquluzadə qələmi və “Molla Nəsrəddin”i ilə birlikdə azad Vətən, xoşbəxt millət naminə axtarışa çıxmışdı. Hələ “Mozalan”, “Hop-hop”, “Lağlağı”, “Hərdəmxəyal” millət, Vətən adına bir qulluq eləmək niyyətilə rusların “zadaça” dediyi 18 məsələdən ibarət “Təzə təlim kitabı” cəm etmişdilər ki, cəmiyyətin bütün eybəcərlikləri bu məsələlərdə öz həllini tapmışdı. Amma nə fayda? Bunları dərk edən kim idi? “Niyə məni döyürsünüz?” – deyib, “Niyə mən dərsdən qaçdım”ı anladanın: – “A mollalar, niyə məni döyürsünüz? Olmaya məndən qorxursunuz? Olmaya qorxursunuz ki, əyilib camaatın qulağına bir neçə söz pıçıldayam, bir neçə mətləblərdən agah edəm? Olmaya qorxursunuz ki, məcmuəmin vərəqlərini nökərlər samovar alışığı edə-edə və şəkillərini uşaqlar oynada-oynada axırda camaat gözünü açıb bəzi işlərdən xəbərdar ola?” səsinə səs verən kim idi?

“Molla Nəsrəddin” deyirdi ki, “Biz” “Nə vaxt” , “Bəs nə vaxt” “Azadiyi-vicdan” olacağıq. “Fürsət” tapıb“ xalqa “Bir para sözlər” dinlədib, “Oktyabr kimin bayramıdır?”ı açıqlaya və onlara “İnqilab lazım” olduğunu anlada biləcəyik? “İfratın mənfəəti”nin “Tərəqqi əlamətləri” olduğunu “Müsəlman içində gördüklərim”dən fərqliliyini sübut edə biləcəyik?

“Çox qəribə” idi ki, “Molla Nəsrəddin” dəfələrlə yazsa da, millətə üz tutub onlara hüquqlarından, azad yaşamağın gözəlliyindən bəhs etsə də, onun “Nəsihət”ini dinləyən yox idi. Lakin mollanəsrəddinçilər bu yoldan çəkinmir, yorulmur, usanmır, “Müsəlman”lara “Qatıq ağdırmı, qaradırmı?” ilə “İsti su-soyuq su”yun fərqini yenə də izah edir və bu yolda mübarizəni böyük yanğı ilə davam etdirirdilər.

*Ardı Səh. 13*

# 119 il əvvəl bizi deyib gəlmişdi...







Əvvəli-Səh-12

## Həm yazılarla, həm şəkillərlə

"Molla Nəsrəddin" milləti doğru yola tək yazmaqla deyil, həm də şəkillərlə, karikaturalarla dəvət edirdi. Jurnalın rəngarəng çıxmasında, bəzən şəkillərin, karikaturaların sanki "dil açıb" danışmasında rəssamlar – Əzim Əzimzadə, Oskar Şmerlinq, İosif Rotterin böyük əməkləri olmuşdur.

Birinci nömrənin üz qabığında həmvətənlərimizi yatmış vəziyyətdə göstərən bir rəsm çəkilib dərc edilmişdi. Bununla da ümumi amal və məqsəd ortaya qoyulmuşdu: onları oyandırıb söylədiklərinə qulaq asmağı xahiş etmək. Çünki "Molla Nəsrəddin"i Azərbaycan xalqının min illərdən bəri davam edib gələn dərdləri çox düşündürürdü. Bu dərdlər içərisində dini fanatizm daha dəhşətlisi idi. O dövrün cəmiyyətində dini əldə rəhbər tutub bundan yararlanan ruhanilərə hər addımda rast gəlinirdi. Onların sayı sanki yağışdan sonra çıxan göbələklər kimi gündən-günə artırdı. Dinin mahiyyətini bilməyənlərə, bundan suiistifadə edib camaatın malını tar-mar edənlərə, onları mövhumata sürükləyib elmdən, təhsildən yayındıranlara, azadlığı, intibahı din pərdəsi altında kəsib-doğrayanlara qarşı "Molla Nəsrəddin" üsyan edib deyirdi: – "Əvvələn, mən molla ola-ola müsəlman qardaşlarıma vəz edən vaxt deyirəm: Bir Allaha sitayiş edin, bir də Peyğəmbərə və imamlara itaət edin. Amma siz deyirsiniz: Allaha da sitayiş edin, Peyğəmbərə də, imamlara da, mollalara da, dərvişlərə də, ilan oynadanlara da, fala baxan, tas quran, dua yazan, cadukün, həmzad, əcinnə, kəlilə, dimnə, şeytan, div, mərrix, sərrix, tərrix, amax, saşan, küflə qurdu, mığmığ, mozalan – bunların cümləsinə sitayiş edin!...Mən də mollayam, siz də molla. Amma mən müsəlman qardaşlara deyirəm: ey müsəlmanlar, gözünüzü açınız, mənə baxınız; amma siz mollalar deyirsiniz: ey müsəlmanlar, gözünüzü yumunuz, mənə baxınız....Mən də mollayam, siz də mollasız. Amma bir balaca təfavütü budur ki, mən heç olmasa bir parça qalın kağız üstünə bir neçə nağıl-nuğul yazıb ilan-qurbağa şəkli çəkirəm ki, oğluşaq şəkillərə baxıb gülsünlər və nökərlər kağızını alışıq edib, asanlıq ilə ocağı yandırsınlar... Siz mollalar deyirsiniz:

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın!

Yatmışları razı deyiləm kimsə oyatsın.

Tək-tək ayılan varsa da haqq dadıma çatsın!

Mən salim olum, cümlə cahan batsa da batsın!

Millət necə tarac olur-olsun, nə işim var?

Düşmənlərə möhtac olur olsun, nə işim var?"

## Nə deyirdi "Molla Nəsrəddin?"

"Məscidlərimiz"də "Din"lə, "Dindarlıq"la məşğul olan dırnaqarası mollaların "Din və millət"in başına açdıqları oyunlardan danışırdı. "Oruc yeyənlərin və oruc tutanların hesabı"ndan "Orucu batil eləyən şeylər"ədək açıb tökürdü ortaya. Camaatı yoldan çıxarıb günlərlə çölün düzündə, günün altında yağış üçün "Müsəlla" ya vadar edənlərin fitnə-fırıldağını lağa qoyub gülürdü. "Ruzi-aşura"dan ta "Aşura oğruları"nın hərəkətlərinədək xalqa bəyan edirdi. Küçələrdə zəncir vurub özünə zərər verən, "Baş yarmaq"la qanlarını axıdanlara üz tutub: "Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır!" – deyirdi.

Amma yenə də nə fayda? "Molla Nəsrəddin" nəşrindən düz 20 il sonra "hələ ayılmayıb", – deyə hayqıranda, qonşunun "Kim ayılmayıb?" sualına "Hələ dəm alır", – dedi: "Ayılmayan həmin mənim millətimdir ki, iyirmi il bundan qabaq mən onu yuxuda qoyub gəldim".

## Cəlil Məmmədquluzadəni dinsizliklə ittiham edirdilər

"Molla Nəsrəddin" Azərbaycanda milli satirik mətbuatın və tənqidi-realist ədəbiyyatın əsasını qoymuşdu. Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri kimi görkəmli sənətkarları öz ətrafında toplayan dərgi açıq söz söyləyirdi, düz yol göstərirdi. Yalanı qamçılayırdı, haqsızlığı kəsirdi, ədalətsizliyə meydan oxuyurdu, fırıldaqçılara müharibə elan edirdi. Məqsəd dövrün ziyalılarının düşüncələrindəki Azərbaycanı görmək idi. Azərbaycan xalqını, millətini hər xalqdan, millətdən öndə görmək idi. Onları fanatizm, mövhumat girdabında yox, inkişaf, intibah yollarında görmək idi. Elə bütün bunlara görə də məlum qüvvələr Mirzə Cəlili dinsizliklə, "Molla Nəsrəddin"i Allahsızlıqla damğalamaq istəyirdilər.

Gəlin, görək, o, necə Allahsız idi ki, ədəbiyyat aləmi ilə tanışlığa böyük İslam şairi, dahi Məhəmməd Füzulinin əsərləri ilə başlamışdı? O necə Allahsız idi ki, "Molla Nəsrəddin" jurnalının adının "Allahsız" adı ilə əvəzlənməsinə qəti şəkildə etiraz edib, "Allah olmayan yerdə mən yoxam", – demişdi? O necə Allahsız idi ki, yaşadığı ev dəfələrlə axtarışlara məruz qalmışdı? Nə axtarırdılar, "Allahsızın" evində?

"Molla Nəsrəddin" bu və digər səbəblərdən də yeni dövrün sərt tənqid, qınaq və təqiblərinə məruz qaldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında əvəzsiz xidmətləri olan, sovet dövrü kimi ağır rejimdə təzyiqlər altında işini davam etdirib sözünü deyə bilən, milli şüuru formalaşdıran jurnal 1931-ci ildə öz fəaliyyətini dayandırdı. 1932-ci ildə isə böyük mütəfəkkir-yazıçı Cəlil Məmmədquluzadə dünyasını dəyişdi. Elə Mirzə Cəlilin jurnalın nəşrinin dayandırılmasından cəmi bir il sonra ölümünə səbəb ona qarşı haqsızlıqlar, səhv başa düşülməsi oldu. O, bu haqsızlığa dözə bilmirdi. Hələ neçə-neçə nəşr olunmamış gözəl əsərləri də var idi ki, hamısını yandırdı. Kaş ki əsərlərini yandırarkən onun üzündəki "Od əllərimi, qəlbimi, yoxsa əsərlərimi yandırır?" ifadəsini görən olardı

...Bəli, tək Mirzə Cəlil deyil, Nəsimilər, Füzulilər, Nizamilər, Vaqiflər, Sabirlər – yüzlərlə şair və yazarlarımızın əksəriyyəti dövründə düzgün başa düşülməyib. Çünki Azərbaycan iştahasında olanlar xalqı, milləti əsrlərlə doğru yoldan döndərməyə çalışıblar. Şükürlər olsun ki, əsrlərin mücadilə və mübarizəsi öz bəhrəsini verib, Azərbaycan müstəqil respublika olub. Dünyada tanınıb, inkişaf etmiş ölkələr sırasında yer alıb. Qızıl torpağın içərisində də öz parlaqlığını saxladığı kimi, Mirzə Cəlil kimiləri də xalq milli yaddaşının dəyər genofondunda saxlaya bilib. Onların hər biri qiymətini alıb, xalqın mənəvi irsinə çevriliblər. Budur, Cəlil Məmmədquluzadə haqqında Ümummilli Liderimiz Heydər Əliyevin dəyərli fikirləri: "Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir".2019-cu ildə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında ölkə Prezidentinin Sərəncamı, böyük ədibin ayrı-ayrı illərdə keçirilən yubileyləri, Bakıda və doğulduğu doğma Naxçıvanda ev-muzeylərinin yaradılması, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeylərinin açılması, heykəlinin ucaldılması, teatr, muzey, şəhər, qəsəbə, kənd və küçələrə adının verilməsi, əsərlərinin səhnələşdirilməsi, külliyatının dəfələrlə, hətta latın qrafikası ilə nəşri, kitabxanalara hədiyyə edilməsi, onun ölməz irsinə sonsuz sevginin, sayğının göstəriciləridir.

Ey Şərqin müdrik ağsaqqallı Molla Nəsrəddini! Naxçıvanda illərdir ki, mirzəcəlilşünaslıq məktəbi fəaliyyət göstərir. Bu məktəbin banisi akademik İsa Həbibbəyli yazır: "Böyük Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr edilən məşhur "Molla Nəsrəddin" jurnalı Azərbaycan tənqidi realizm ədəbiyyatının ideya-sənət cəbbxanasıdır. Mübariz ideyalarına və qətiyyətli mövqeyinə görə "Molla Nəsrəddin" jurnalı Azərbaycan xalqının istiqlal kitabına çevrilmişdir".

Kaş ki gəlib sizin qələmlə becərdiyiniz, bizlərin isə qanla cücərtdiyimiz istiqlalımızı görə bilərdiniz. Kaş ki yaralarınıza məlhəm olacaq ana dili haqqında qanunlarımızla tanış ola, ana dilinə ucaldılan abidələrimizi görə bilərdiniz. Həmfikirlərinizi, nəşr olunan çoxsaylı qəzet və jurnalları, onlara verilən söz, mətbuat azadlığını görə bilərdiniz. Şəhər, qəsəbə, kəndlərimizdə uşaqların oxuduqları məktəbləri, respublikamızdakı ali məktəblərdə, xarici ölkələrdə təhsil alan gənclərimizi, gəncliyimizin intellektual səviyyəsini görə bilərdiniz. Kaş ki ölkəmizdəki dini tolerantlığı, sizin yaralı yeriniz olan Aşura günlərində qanvermə aksiyalarının xalqın neçə-neçə övladına həyat verdiyini görərdiniz. Kaş ki görə bilərdiniz: bir əsr öncəkindən çox fərqli bir əsr sonranı

***Mətanət Məmmədova***



# Cənubi Qafqazda sülh gündəmi

## Tbilisidə Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələrinin görüşü nə vəd edir?

*Gürcüstan, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin müavinləri Laşa Darsaliya, Elnur Məmmədov və Vahan Kostanyan Cənubi Qafqazın inkişaf perspektivlərini müzakirə etmək üçün Tbilisidə görüşüblər. Son zamanlar üç ölkənin hakimiyyətləri regionda sülhün bərqərar olması üçün daha çox səy göstərməyə başlayıblar. Onların bunun üçün bir neçə səbəbi var ki, bu da yalnız hər bir ölkənin, xalqların rifahı ilə bağlıdır.*

Görüşün məqsədi ölkələr arasında qarşılıqlı faydalı praktiki üçtərəfli əməkdaşlığın inkişafına daha da töhfə verəcək və son nəticədə regionun firavanlığına, sabitliyinə və davamlı inkişafına yönələcək ümumi maraqların mübadiləsidir. Maraqlıdır ki, bundan əvvəl üç ölkənin xarici işlər nazirləri Ararat Mirzoyan, Ceyhun Bayramov və Maka Boçorişvili Türkiyədə Antalya Diplomatik Forumunda görüşüblər.

Orada Bakı və İrəvan nümayəndələri kimin Konstitusiyasının daha təhlükəli olması ilə bağlı mübahisə edib, digər tərəfin sülh müqaviləsinin imzalanmasında səmimi marağına şübhə ilə yanaşıblar. Buna baxmayaraq, Boçorişvili xatırladıb ki, Tbilisi ənənəvi olaraq hər iki qonşu ilə yaxşı münasibətlərə malikdir və regionda sülh gündəmini təşviq etmək niyyətindədir. "Bizim regionumuzda sülhün və sabitliyin təşviqi ilə bağlı səmimi niyyətlərimiz var. Ona görə də biz həmişə deyirik və indi də təkrar etmək istəyirəm ki, Ermənistan və Azərbaycan Gürcüstana arxalana bilər və biz regionumuzda dialoqu və əməkdaşlığı asanlaşdıracaq bütün mümkün vasitələri təqdim edəcəyik. Cənubi Qafqazın buna böyük potensialı var", - nazir vurğulayıb.

Bundan başqa, bir gün əvvəl Gürcüstan prezidenti Mixail Kavelaşvili Azərbaycana səfər edib. Bu, onun dövlət başçısı kimi ilk xarici səfəri idi. Azərbaycanlı həmkarı İlham Əliyevlə görüşündə o, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin mətni üzrə razılaşmanı alqışlayıb. "Ümid edirik ki, yaxın gələcəkdə regionda uzunmüddətli və davamlı sülhün təmin edilməsi üçün əsas təkan olacaq tarixi müqavilə imzalanacaq. Sizi əmin etmək istəyirəm ki, Gürcüstan həmişə Cənubi Qafqazda dialoq, diplomatiya və dinc yanaşı yaşamanın tərəfdarı olub və bu kurs gələcəkdə də davam edəcək", - Kavelaşvili bildirib.

O, ikinci xarici səfərini aprelin 28-29-da Ermənistana edəcək. Orada Kavelaşvili baş nazir Nikol Paşinyan, parlamentin sədri Alen Simonyan və bütün ermənilərin katolikosu II Qareginlə görüşəcək. Öz növbəsində Ermənistan hakimiyyəti Gürcüstanın sülhməramlı təşəbbüslərinə müsbət cavab verir. Xüsusilə, IV Tbilisi Beynəlxalq İpək Yolu Forumunda Paşinyan ilk dəfə özünün "Dünyanın kəsişməsi" – Cənubi Qafqaz ölkələri ilə qonşuları arasında gömrük maneələrinin aradan qaldırılmasına yönəlmiş layihə haqqında danışıb.

Ermənistanın XİN başçısı Mirzoyan türkiyəli jurnalistlərə deyib ki, Ermənistanla Azərbaycan arasında onların sərhədində sülh müqaviləsi bağlana bilər. Eyni zamanda o, Ankaranın tərəflərin barışmasında mühüm rol oynaya biləcəyinə ümid edir. Xüsusilə, onun nöqteyi-nəzərindən, başlanğıc üçün Ermənistanla Türkiyə arasında münasibətləri "tam tənzimləmək" mümkündür.

"Atlas" Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, ATƏT-in Minsk Qrupunun buraxılmasından və Ermənistan Konstitusiyasından Azərbaycana ərazi iddiası ehtiva edən Müstəqillik Bəyannaməsinə istinadın çıxarılmasından sonra Bakı və İrəvan istər sərhəddə, istərsə də Tbilisidə sülh müqaviləsi imzalaya bilərlər. "Son vaxtlar Gürcüstan rəsmilərinin Bakı və İrəvana səfərlərinin sayı artıb. Gürcüstan həm Azərbaycanın, həm də Ermənistanın strateji tərəfdaşıdır. Azərbaycanın dünya bazarlarına nəql etdiyi neft və qazın əsas hissəsi Gürcüstandan keçir və hər iki ölkə Orta Dəhlizinin bir hissəsidir. Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Xəzər dənizi vasitəsilə Avropaya daşıyacağı yaşıl enerji həm də Gürcüstanla sıx sərhəddən İrəvana da keçəcək. Bu səbəbdən, Gürcüstan həm Azərbaycan, həm də Ermənistanla strateji münasibətləri qoruyub saxlaya bilib və üç dövlət arasında əməkdaşlıqda maraqlıdır. Rəsmi Bakı da bunun əleyhinə deyil".

Gürcüstanın "Xalqın Gücü" partiyasının üzvü, politoloq David Kartvelişvili isə mətbuata açıqlamasında bildirib ki, Tbilisi yeni dünya düzəninin yaranmasına hazırlaşır. "Dünya sürətlə dəyişir. Gələcək Cənubi Qafqazın təkcə enerji və nəqliyyat dəhlizinə deyil, Mumbayı Arxangelsklə, Tokionu Lissabonla birləşdirən tam hüquqlu yol kəsişməsinə çevrilməsini tələb edir. Regionumuzda sülh olmasa, belə bir şey olmayacaq. Bu kəsişməni qurmaq üçün Gürcüstan, Ermənistan və Azərbaycan səylərini birləşdirməli və Tbilisidə keçirilən üçtərəfli görüşlərdən daha yüksək səviyyədə olmalıdır. Bu istiqamətdə addımlar atılır", - Kartvelişvili vurğulayıb.

Qafqaz İnstitutunun elmi işçisi Qrant Mikaelyan hesab edir ki, Gürcüstanın Ermənistanla Azərbaycan arasında vasitəçilik etməkdə maraqlı olmasının iki səbəbi var. Birincisi, bu yolla Qərb dövlətlərinin təşkil etdiyi diplomatik təcriddən çıxmağa çalışır. İkincisi, Tiflis Cənubi Qafqazda sülhün bərqərar olacağı təqdirdə öz mövqelərini ciddi şəkildə gücləndirəcəyinə ümid edir. "Gürcüstanda yaxşı xatırlayırlar ki, Tiflis Rusiya İmperiyası dövründə Qafqazın paytaxtı olub və onlar o dövrlərə qayıtmaq istəyirlər. Üstəlik, region sülhə qovuşarsa, ondan ən çox qazanan bu ölkə olacaq. O, regionun Qərbə nəqliyyat pəncərəsinə çevriləcək", - Mikaelyan deyib.

Lakin erməni politoloq Tbilisinin Ermənistan-Azərbaycan münaqişəsinin həllində hər hansı ciddi rol oynaya biləcəyinə inanmır. Gürcüstanın İrəvana və Bakıya təzyiq etmək səlahiyyəti yoxdur, hər şey Türkiyə və Azərbaycandan asılıdır.

**V.VƏLİYEV**

# Müdafiə Nazirliyində görüş keçirilib





Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində bir sıra dövlət qurumları və Qeyri-Hökumət Təşkilatları (QHT) nümayəndələrinin, həmçinin ekspertlərin iştirakı ilə tədbir keçirilib. Nazirliyin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, eləcə də torpaqlarımızın bütövlüyü və ölkəmizin suverenliyi uğrunda canını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tədbirdə müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyası haqqında zəruri məlumatlar verilib. Qeyd olunub ki, ordu quruculuğunda aparılan islahatların tərkib hissəsi kimi, strateji kommunikasiya sahəsi də dövrün tələbləri və müasir yeniliklər çərçivəsində inkişaf etdirilir.

Daha sonra tədbir iştirakçılarına "Dövlət qurumları və QHT-lərlə iş", "Media məkanında dövlət sirrinin mühafizəsi", "Vətəndaşların müraciətləri ilə iş" və digər mövzularda brifinqlər təqdim edilib. Tədbirdə, həmçinin Azərbaycan Ordusunda hərbi təhsil sahəsində görülən işlərdən danışılıb, Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələri və qəbul qaydaları ilə bağlı geniş məlumat verilib.

Tədbirin sonunda ətraflı fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib, qonaqları maraqlandıran suallar cavablandırılıb.



(XX YAZI)

(əvvəli burada, https://sesqazeti.az/news/mia/1245367.html)

Bu seriyadan olan keçən yazılarımızda orqanizmdəki DNT kodları, hüceyrələrin funksiyası beyinin möhtəşəmliyi haqda danışmışdıq. Bu hissədə isə insan orqanizmindəki digər möcüzələrdən danışacağıq.

Hüceyrədə müəyyən bir zülalın əmələ gəlməsi lazım olduqda, RNT polimeraza adlı bir ferment hüceyrənin məlumat bankı olan DNT-yə gedir, DNT-də istehsal olunacaq zülal haqqında məlumatı tapır və özünə surət çıxarır.

Ancaq bəzən proteinlə əlaqəli məlumatlar DNT-nin müxtəlif bölgələrində səpələnmiş şəkildə tapılır. Buna görə də, RNT polimeraza fermenti məlumatın başladığı yerdən bitdiyi yerə qədər bütün hissəni kopyaladığı zaman, aralarındakı lazımsız hissələri də kopyalayır.

Arada lazımsız məlumat varsa, fərqli və faydasız bir zülalın istehsalı ilə nəticələnəcək. Bu mərhələdə ”spliceosom” adlanan fermentlər köməyə gəlir və böyük bir məharətlə yüz minlərlə məlumat arasından lazımsızlarını seçir və qalan zəncirləri bir-birinə əlavə edir.

“RNT splicing” adlanan bu prosesdə bir neçə atomun birləşməsindən əmələ gələn molekullar çox şüurlu bir davranış nümayiş etdirirlər.



Fermentlər həyatı mümkün edən və həyatla əlaqəli kimyəvi dəyişikliklərin ”lazım olduqda” sürətlənməsinə imkan verən zülal molekullarıdır.

Bir ferment reaksiyanı 10 milyard dəfə sürətləndirə bilər. Belə bir sürətlənmə olmasaydı, bir cümlənin oxunması kimi 5 saniyəlik bir proses 1500 il çəkərdi. Bu müddət ərzində bir çox başqa arzuolunmaz kimyəvi reaksiyalar baş verəcək və həyat nəinki yavaşlayacaq, hətta qeyri-mümkün olacaqdı.

Fermentlərin digər mühüm xüsusiyyəti onların seçiciliyidir. Fermentlər bədənin istədiyi reaksiyaları sürətləndirir, arzuolunmazları isə yox. Bəs onlar nəyin istənildiyini və nəyin olmadığını necə bilsinlər? Bunun üçün orqanizmdə baş verən bütün reaksiyaları və funksiyaları bilməli və nəyə, nə vaxt və nə qədər lazım olduğundan xəbərdar olmalıdırlar.

Bundan əlavə, hər bir ferment yalnız müəyyən molekulların iştirak etdiyi kimyəvi reaksiyaları sürətləndirə bilər. Ferment yalnız onun üçün xüsusi olaraq ayrılmış molekulun müəyyən bir bölgəsinə bağlana bilər. Bunun üçün açarın qıfıla sığması kimi ferment də forma baxımından molekulun bu bölgəsinə sığmalıdır. Başqa sözlə, ferment həm düzgün molekulu tanımalı, həm də molekulun doğru yerinə bağlanmalıdır.

İnsan irqi tək bir fermentin çatışmazlığı ilə məhv ola bilər. Bunu görmək üçün bir misal kifayətdir.

İnsan bədənində 200-dən çox müxtəlif növdən olan təxminən 100 trilyon hüceyrə var. Sinir hüceyrələri bədənimizi bir şəbəkə kimi əhatə edir. Bu neyron şəbəkəsində daimi məlumat axını baş verir. Sinirlər boyunca hərəkət edən elektrik siqnalları hər an beyin və orqanlar arasında saysız-hesabsız əmr və siqnallar daşıyır. Bununla belə, sinir hüceyrələri bədənin bir ucundan digərinə uzanan monolit kabellər deyil. Onlar başdan-ayağa birləşdirilir, lakin aralarında boşluqlar var. Heç bir-birlərinə toxunmurlar.

Bəs elektrik cərəyanı bir sinirdən digərinə necə keçir? Bu proses zamanı çox mürəkkəb bir kimyəvi sistem meydana çıxır. Sinir hüceyrələri arasında xüsusi bir maye var və bu mayenin tərkibində çox xüsusi kimyəvi fermentlər var. Bu fermentlər “fövqəladə elektron nəqli” xüsusiyyətinə malikdirlər. Elektrik siqnalı sinirin sonuna çatdıqda, elektronlar bu fermentlərə yüklənir. Fermentlər də sinirlərarası mayedə üzür və daşıdıqları elektronları digər sinirə ötürürlər. Bir insan beyni gün ərzində dünyanın bütün telefonlarından daha çox elektrik impulsu generasiya edir. Bundan sonra elektrik cərəyanı növbəti sinir hüceyrəsinə axmağa davam edir. Bu proses çox kiçik saniyə vahidlərində baş verir və elektrik cərəyanı zərrə qədər də kəsilmir. Beyindən gedən sinir impulsu 274 s/km sürəti ilə hərəkət edir.

Göründüyü kimi, insan bədəni bütün üzvləri ilə tam olsa belə, bircə fermentin belə olmaması insan adlanan canlının mövcudluğunu dayandırması və ya o canlının öz funksiyalarını yerinə yetirə bilməməsi üçün kifayət edərdi. Eyni şey minlərlə digər fermentin hər hansı birində çatışmazlıqlar üçün də keçərlidir.

Həm fermentlər, həm də hormonlar zülallardır və hər ikisi DNT tərəfindən kodlanır. Hər ikisi də bir açar kilidi ilə məqsədlərinə uyğunlaşır, başqa sözlə, onların formaları funksiyaları üçün çox vacibdir. Ancaq hormonlar məlumat molekullarıdır. Bədənin bəzi hissələrində istehsal olunan, qana buraxılan və qan vasitəsilə bədənin digər hissələrinə ötürülən zülallardır. Başqa sözlə desək, qan dövranı vasitəsilə bədənin uzaq hissələrinə iş görmək üçün siqnallar göndərirlər. Məsələn, böyümə hormonu hüceyrə bölünməsi və sümük inkişafı üçün lazımı siqnalları göndərir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti çərçivəsində hazırlanıb.*

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

## *İnsan orqanizmində yaradılmış möhtəşəm möcüzələr*



Onlar yalnız səthlərində müvafiq reseptorlar və ya saxlama stansiyaları olan hüceyrələrdə işləyirlər. Fermentlər katalizatorlardır. Kimyəvi reaksiyaların sürətləndirilməsini və maddələr mübadiləsinin istifadə edə biləcəyi sürətlə baş verməsini təmin edirlər.

Hormonlar fermentlərə çox bənzəyirlər, lakin hormonlar fermentlər kimi kimyəvi reaksiyalara daim daxil və xaric olmur. Bundan əlavə, hormonların qanla çatdıqları orqanlara təsiri uzunmüddətlidir. Əgər susuz və ya acsınızsa, bu hisslər tamamilə hormonal mənşəlidir. Ac olanda bədənin müəyyən hissələrindən ifraz olunan hormonlar beynə çatır və beyində aclıq hissi yaratmağa başlayır. Bu, yemək istəyi yaradır.

Quruluş və iş şəraiti baxımından demək olar ki, heç bir fərqi olmayan bu iki zülalı nə ayırır? Eyni xüsusiyyətlərə və oxşar həndəsi formalara sahib olsalar da, bədəndə istehsal olunan bir zülal birdənbirə ferment və ya hormon funksiyasını yerinə yetirməyə başlayır. Bədəndə onlardan birinə katalizator, digərinə isə mesaj çatdırmağı söyləyəcək şüurlu bir quruluş yoxdur. Bədəndəki bütün digər strukturların zülal və yağlardan heç bir fərqi yoxdur.

Onların bir-birindən daha ağıllı olması, plan və iş bölgüsü qurması, bədəndəki çatışmazlıqları aşkar edib ona uyğun istehsal etməsi mümkün deyil. Onlara nə edəcəklərini, necə davranacaqlarını, bir-birləri ilə necə ünsiyyət quracaqlarını bildirən Yaradıcı və onun yaratdığı proqramdır.

1856-cı ildə Genn Ginsen adlı bir ingilis alimi barmaqların ucundakı xətlərin hər bir insan üçün fərqli olduğunu kəşf etdi. 1856-cı ilə qədər insanlar barmaq ucunun vacib xüsusiyyətindən xəbərsiz idilər.

Tarix boyu yaşamış bütün insanların barmaq uclarının fərqli olduğunun fərqinə varılması ilə barmaq ucunun şəxsiyyət vəsiqəsi kimi olduğu anlaşıldı. Barmaq ucları elə şəxsiyyət vəsiqəsidir ki, hətta eyni əkizlərdə də fərqli olurlar. Bu şəxsiyyət vəsiqəsi heç vaxt saxtakarlığı qəbul etmir. Toxunduğumuz bir çox obyektə heç bir saxtakarlığı qəbul etməyəcək şəkildə imzamızı qoyur. Heç kim bizim imzamızı təqlid edə bilməz. Bizim bu möhürümüzü təqlid etməkdən, inkar etməkdən söhbət gedə bilməz. Biz bu möhürü heç vaxt itirmədən həyatımız boyu özümüzlə daşıyırıq.

Yanıqlardan və zədələrdən tutmuş yaşlanma ilə əlaqədar bədənimizin formasının dəyişməsinə qədər bütün faktorlar möhürümüzün orijinallığına xələl gətirmir.

İki kvadrat santimetrlik bir sahədə möhür kimi milyardlarla müxtəlif naxışları təkrarolunmaz silinməz cizgilərə həkk edən Yaradanın hansı gücə malik olduğunu görmək olur.

İnsanın ən sadə görünən barmağının ucu belə əslində içində DNT olan elə bir məlumat bankıdır ki, insanın sadəcə bu nöqtəsini götürməklə onun bütün bədəni yenidən yaradıla bilər.

“Məgər insan elə bilir ki, biz onun sümüklərini heç vaxt birləşdirə bilməyəcəyik? Bəli, edə bilərik. Biz hətta onun barmaqlarının uclarını belə bərpa edə bilərik”. (Quran, “Qiyamət” surəsin 3-4)

Kor adam barmaqlarının ucu ilə Brayl şriftini oxuyur. Ancaq bədəninin hər hansı digər hissəsi ilə bunu edə bilməz. Çünki barmaqların ucunda qavrayışa həssaslıq dərəcəsi reseptorların sayına nisbətdə çox böyükdür. Bədənin səthində yayılmış təxminən 640.000 həssas dəri reseptoru var. Bu reseptorlar barmaqlarımızın ucundakı ən kiçik sürtünməyə belə millisaniyələr ərzində cavab verir. Bu şəkildə barmaqlarımızın ucları ilə böyük dəqiqlik tələb edən işləri yerinə yetirə bilərik. Ancaq bədənin digər hissələri barmaq uclarımız qədər həssas deyil. Bu da son dərəcə hikmətlidir. Əks təqdirdə, paltarımızın bədənimizə toxunması və ya bir şeyə söykənməsi son dərəcə narahat olardı.

İnsan hüceyrələri daim yenilənir. Bir insanın “mənim bədənim” adlandırdığı bədəni təşkil edən hüceyrələr daimi deyil. Hər dəqiqə 200 milyon hüceyrə doğulur və ölü hüceyrələri əvəz edir. Bu mükəmməl hadisənin idarəsi Yaradıcı tərəfindən “tiroksin” adlanan hormona verilmişdir.

Tiroksin hormonu orqanizmi izləyir, ömrünü tamamlamış hüceyrələri təyin edir və buna uyğun olaraq yeni istehsal əmrini müvafiq bölmələrə göndərir. Bədənin yenilənməsi əsasən bu hormonun fəaliyyətindən asılıdır. Təsadüfən əmələ gələn (bu qeyri-mümkündür) və tamamilə 2şüursuzcasına” hərəkət edən bir hormonun bədəndə neçə hüceyrənin öldüyünü hesablaması və çatışmazlığa uyğun olaraq yenilərini əmələ gətirməsi mümkündürmü? Sual ritorikdir və cavab məlumdur- Xeyr!

Təbii ki, bir hormonun təsadüfən əmələ gəlməsi və orqanizmdə istehsalı istiqamətləndirmək üçün öz başına qərarlar verməsi mümkün deyil. Qırmızı qan hüceyrələri qanımıza qırmızı rəng verən qan hüceyrələridir. Qırmızı qan hüceyrələri düz disklərə bənzəyir və son dərəcə elastikdir. Bu xüsusiyyətlər insan həyatı üçün böyük əhəmiyyət kəsb edir.

Əgər qırmızı qan hüceyrələri bu elastikliyə malik olmasaydı, bədənin bir çox yerində ilişib qalardılar. Çünki qırmızı qan hüceyrələrinin diametri onların getdiyi qan damarlarının diametrindən demək olar ki, iki dəfə çoxdur. Ancaq elastikliklərinə görə bu, problem yaratmır və damarlar içərisində asanlıqla hərəkət edirlər. İnsan bədənindəki damarların uzunluğu təxminən 100 min kilometrdir!

Quranda insanın necə və hansı formalarda yaradıldığı belə ihaz olunur: “Bətnlərdə sizə istədiyi surəti verən Odur. Ondan başqa heç bir Tanrı yoxdur. O, Qüdrətlidir, Müdrikdir”. (Ali İmran, 3/6) “Sonra onu başqa bir məxluq olaraq yaratdıq...” (əl-Muminun, 23/14)

*(Ardı olacaq)*

*Elçin Bayramlı*

**“SƏS” qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Genetik saç tökülməsinin müalicəsi varmı?



***“Saç tökülməsinin əsas səbəbləri arasında birinci yerdə androgen, ikinci yerdə telogen tökülmə, yəni stressə və dəmir, vitamin əskikliyinə bağlı, üçüncü yerdə isə stress dayanır". Bu sözləri SİA-ya açıqlamasında trixoloq Cəmilə Əsgərova deyib. O bildirib ki, genetik tökülmənin müalicəsi yoxdur: "İlkin mərhələdə prosesin sürətini azaltmaq olar, iləri mərhələlərdə isə sadəcə saç əkimi gerçəkləşdirilə bilər. Saç tökülmələri ocaqlıdır.***

Androgen, telogen və dartma, yanmaya bağlı traksion alopesiyadır. Uşaqlarda adətən ocaqlı və telogen saç tökülməsi olur. Çox nadir hallarda isə erkən yaşlarda valideynlərin uşaqlarının, xüsusilə də, qızların saçını bərk şəkildə dartıb ”at quyruğu”, toppuz yığması ilə əlaqədar gicgah, alın nahiyələrində saçların seyrəldiyini görmək olar.

Uşaqlarda böyük ölçüdə dəmir əksikliyinə bağlı olaraq saç tökülməsi ola bilər. Hormonal balans uşaqlarda çox nadir hallarda olur. Adətən qalxanabənzər vəzi xəstəlikləri ilə bağlı ola bilər. Amma əksəriyyətdə isə dəmir əksikliyinə də bağlı saç tökülməsi müşahidə olunur. Genetik tökülmə androgen saç tökülməsidir. Bu, kişilərdə androgen hormonlarının səbəbindən olur. Həm kişi tipli, həm də qadın tipli androgenetik saç tökülməsi var. Qadınlarda səbəb adətən hormonaldır, yəni androgen hormonlarının üstünlüyü ilə əlaqədardır. Kişilərdə də həmçinin genetik olaraq bu geni daşıdıqlarına görə baş verir. Kişi tipli nəsildən-nəslə keçən daşıyıcı olan saç tökülməsidir.

## AYDINLIQ GƏTİRİLDİ

Saç tökülməsi kişilərdə və qadınlarda fərqli səbəblərdən meydana gələ bilər. Kişilərdə rast gəlinən saç tökülməsi adətən genetik olan və 50% dən çoxunda kişi hormonlarına həssas olan saç tökülməsidir. Erkən yaşda başlayan müalicə ilə saçların tam tökülmə müddəti uzadıla bilər. Bu tip saç tökülmələrinə qadınlarda da rast gəlinə bilər. Ailədə genetik saç tökülməsi olan qadınlarda xüsusi ilə gənclərdə qidalanma, hormonal disbalans və stress səbəbindən saç tökülmələrinə rast gəlinə bilər”.

*Söylü Ağazadə*

# Məşhur cütlüyün 4 milyon dollarlıq malikanəsi xarabalığa çevrilib

***Hollivudun bir müddət əvvəl vəfat edən cütlüyü Cin Hekmenlə Betsi Arakavanın malikanəsinin fotoları yayılıb. BAKU.WS xəbər verir ki, bir zamanlar cütlüyün xoşbəxt anlarına şahidlik edən malikanə artıq siçan və siçovulların məskəninə çevrilib. 4 milyon dollarlıq malikanənin yayılan fotoları hər kəsi kədərləndirib. Səliqəli və komfortlu ev hazırda xarabalığı xatırladır.***

Xatırladaq ki, malikanənin hantavirusla dolu olduğu bildirilmişdi. Bu siçanların yaydığı virusdur.



# Bu mövsüm Çempionlar Liqasında 100 milyon qazanıblar

2024/25 mövsümü UEFA Çempionlar Liqasında indiyədək ən çox qazanc əldə edən klublar müəyyənləşib. Bu barədə “Football Meets Data” adlı analitik platforma məlumat yayıb. Siyahıya PSJ başçılıq edir. Fransa çempionu 119,4 milyon avro mükafat qazanıb və bu göstərici turnirdə iştirak edən bütün klublar arasında ən yüksək nəticədir. Mənbənin məlumatına görə, ikinci yerdə Milanın “İnter” klubu qərarlaşıb – 118,1 milyon avro. Üçüncü pillədə isə Londondan “Arsenal” gəlir – 117 milyon avro.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700